

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti YAP nümayəndə heyətini qəbul edib



6

SƏS

№ 207 (6890)

14 noyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# XANKƏNDİ - 20 ilin qüruru



8

# Hərbi dəstək adı ilə regional təhlükəsizliyi pozmaq niyyəti



7

## Adı şirin, özü zəhərdən acı



10

## Dövlətimizin, xalqımızın qələbəsini gözü götürməyən XAİNLƏR




12

## Sevinc Osmanqızı ağlına deyil, Kristofer Smitin təlimatına güvənir



13

## Fransanın "Bastion" zirehli maşınları Ermənistana göndərilib



Accueil › Europe › Arménie

La France livre des véhicules de transport de troupes Bastion à l'Arménie

Première livraison de blindés français à l'Arménie : des Bastion fabriqués par Arquus sont partis en Arménie au lieu de l'Ukraine. Ce serait la première livraison puisque la France pourrait aussi fournir 50 blindés VAB MK3.

Ouest-France
Philippe CHAPLEAU
Modifié le 13/11/2023 à 11h49
Publié le 13/11/2023 à 11h36

Des Bastion à fond de cale avant leur livraison en Arménie. | DR X

6

## 8 avtomobildən oğurluq edən keçmiş məhkum saxlanılıb



16

# “Cənubi Qafqaz regionunda artıq yeni reallıqlar yaranıb”

*Azərbaycan Prezidenti İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib*



***Prezident İlham Əliyev noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul edib. Görüşdə Cənubi Qafqaz regionunda vəziyyətlə və ATƏT Parlament Assambleyasının rolu ilə bağlı fikir mübadiləsi aparıldı.***



Dövlətimizin başçısı qeyd etdi ki, Cənubi Qafqaz regionunda artıq yeni reallıqlar yaranıb. Prezident İlham Əliyev vurğuladı ki, regionda baş vermiş son hadisələr Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş işğalı və hərbi təcavüzü kontekstində nəzərdən keçirilməlidir. Bu işğal və təcavüzün nəticələrinə baxılmadan regionun gələcəyi ilə bağlı baxışların irəli sürülməsi düzgün yanaşma olmaz.

Prezident İlham Əliyev bildirdi ki, Ermənistan Azərbaycan torpaqlarının işğalını əbədiləşdirməyə çalışırdı. İşğal dövründə həyata keçirilmiş vasitəçilik missiyaları tamamilə uğursuz olmuş, işğal və təcavüzün nəticələrini aradan qaldırmamışdır.

Dövlətimizin başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsindən sonra imzalanmış 2020-ci il 10 noyabr Bəyanatından irəli gələn öhdəlikləri Ermənistan yerinə yetirmədi. Belə ki, Ermənistan nəinki Qarabağdakı silahlı qüvvələrini ərazidən çıxarmamışdır, hətta həmin ərazini hərbi texnikanın, silahlı qüvvələrinin şəxsi heyətinin və minaların daşınması üçün məqsədyönlü şəkildə istifadə edirdi. Həmçinin Ermənistan Şərqi Zəngəzurla Naxçıvan arasında əlaqənin yaradılması ilə bağlı öz öhdəliklərini yerinə yetirmədi.

Prezident İlham Əliyev qeyd etdi ki, artıq bu məsələlər keçmişdə qaldı. Hazırda regionun sülh gündəliyi üçün çox yaxşı imkanlar var. Dövlətimizin başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsindən sonra sülh müqaviləsi və onun əsasını təşkil edən prinsiplər təşəbbüsü ilə də məhz Azərbaycan çıxış edib. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Cənubi Qafqazda davamlı sülhün tərəfdarıdır və regional sülh gündəliyini, Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh müqaviləsinin imzalanmasını dəstəkləyir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan hazırda birgəyaşayış və geriqayıtma hüququ ilə əlaqədar aydın və şəffaf proqramı təqdim etsə də, azərbaycanlıların Ermənistana geri qayıdışı ilə bağlı geriqayıtma hüququnu Ermənistan inkar edir və bununla əlaqədar olaraq hər hansı bir baxış ortaya qoymayıb.

Görüşdə qeyd olundu ki, ATƏT Parlament Assambleyası Ermənistan və Azərbaycan nümayəndə heyətləri arasında etimadın qurulması baxımından səmərəli platforma ola bilər.

## Svetlana Qrinçuk: “Azərbaycanın Ukraynaya verdiyi elektrik avadanlıqları artıq ölkənin enerji təminatında istifadə olunur”

***Ukraynanın elektrik şəbəkəsinin həm raket, həm də pilotsuz uçuş aparatlarının hücumları nəticəsində dəhşətli dağıntılara məruz qalmasından sonra dəstəyini əsirgəməyən ilk ölkələrdən biri olduğuna görə Azərbaycan dövlətinə və xalqına təşəkkür edirəm. 2022-ci ilin payızında Rusiya Ukraynanın enerji sisteminə hücumu əsas istiqamətlərindən biri kimi müəyyən etdikdən sonra Azərbaycan bu sahədə yaranmış problemlərin aradan qaldırılması üçün yardımlarını göstərməyə başladı.***



Bu sözləri AZƏRTAC-a müsahibəsində Ukraynanın energetika nazirinin müavini Svetlana Qrinçuk söyləyib.

“Azərbaycandan humanitar yardım formasında aldığımız avadanlığın həcmi bizə çox sayda elektrik xətlərimizi, enerji infrastrukturu obyektlərimizi bərpa etməyə kömək göstərir. Bununla da Ukrayna əhalisinin böyük hissəsi işıq və istiliklə təmin edilir. Enerji sistemimizin məruz qaldığı hücumlardan və dağıntılardan sonra elektrik və istilik təchizatını tez bir zamanda bərpa etmək bizim üçün bir nömrəli tapşırıqdır. Biz çox şadıq ki, bizə kömək edən tərəfdaşlarımız var. Azərbaycanın son humanitar yardımı zamanı Ukraynaya verdiyi elektrik avadanlıqlarını artıq enerji şirkətləri arasında bölüşdürürük və onlar artıq təmir işlərində, xüsusən də elektrik enerjisinin verilişində istifadə olunur”, - deyə Svetlana Qrinçuk əlavə edib.

Nazir müavini Ukraynada enerji təchizatı ilə bağlı mövcud vəziyyətin nisbətən qənaətbəxş olduğunu bildirib.

“Ukraynanın enerji sistemində baş verən kütləvi hücumlar nəticəsində biz generasiya gücümüzün 50 faizdən çoxunu itirdik, ötürmə sistemləri zədələndi, lakin yaz, yay və payız aylarında aparılan titanik işlər nəticəsində, həmçinin payızda bizə həm humanitar yardımla, materiallarla kömək göstərən, fond formalaşdıran, bizim üçün avadanlıqlar alan tərəfdaşlarımızın dəstəyi ilə misilsiz təmir kampaniyası həyata keçirdik. Bu gün biz kifayət qədər generasiya güclərini bərpa etmişik ki, yeni başlayan mövsümdə fasiləsiz istilik verilişini və zəruri istehlakı təmin edək”, - deyə S.Qrinçuk vurğulayıb.

## Misir qəzetləri: Azərbaycan Fransanın Ermənistana zirehli avtomobil göndərməsini pisləyib




***Misirin “Əl Əhram” nəşrində və “Nile” internet qəzetində “Azərbaycan Fransanın Ermənistana zirehli avtomobil göndərməsini qətiyyətlə pisləyib” sərlövhəli materiallar dərc olunub.***

AZƏRTAC xəbər verir ki, materiallarda qeyd olunub: “Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadə bəyan edib ki, Ermənistana hücum xarakterli “Bastion” zirehli avtomobillərinin göndərilməsi Azərbaycan ərazilərinin bir hissəsini 30 ilə yaxın işğal altında saxlayan, hazırda da təcavüzkar siyasətdən və ritorikadan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə onun destruktiv fəaliyyətinə xidmət edəcək”.

Misir ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Azərbaycan rəsmisi özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən Fransanın bu addımlarının regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyduğunu və vəziyyətin gərginləşdirilməsinə xidmət etdiyini vurğulayıb.

Xəbərlərdə Azərbaycan XİN-in açıqlamasında yer alan müraciət təqdim olunub: “Beynəlxalq ictimaiyyəti öz təcavüzkar siyasəti və əməlləri ilə tanınan Ermənistanı silahlandırmaqdan, buna şərait yaratmaqdan çəkinməyə, regionda sülh və firavanlığın bərqərar olunmasının qarşısını alan belə qeyri-legitim fəaliyyəti dayandırmağa və pisləməyə çağırırıq”.



# Xankəndidə keçirilən hərbi parad bir daha nümayiş etdirdi ki, Qarabağ Azərbaycandır!

***Noyabrın 8-də Zəfər Gününü daha da əlamətdar edən hadisələrdən biri də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndi şəhərində hərbi paradı qəbul etməsi oldu. Məhz Vətən müharibəsində qazanılmış tarixi Zəfərimizə həsr olunmuş möhtəşəm hərbi paradın Xankəndi şəhərində keçirilməsi Azərbaycanın gücünün dünyaya nümayiş etdirilməsidir. Ən əsas məqam isə, Ali Baş Komandan, Prezident İlham Əliyev cənabları ilə bərabər birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak etməsi Onun qalib sərkərdə, qətiyyətli, cəsarətli, uzaqgörən dövlət başçısı olduğunu bir daha dünyaya bəyan etdi.***



*PREZİDENT İLHAM ƏLİYEV: “Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!”*

Dünya ictimaiyyəti bu dəfə də “Qarabağ Azərbaycandır!” reallığının şahidi oldu. Xankəndi paradı bu reallığı əyani şəkildə





təsdiqlədi. Silahlı Qüvvələrimizin parad heyətləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Şuşa şəhərinə sancılan – Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağını, ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqlarının Xankəndi şəhərinin mərkəzi meydanına gətirmələri hər bir soydaşımızı qürurlandırdı. Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı işğalçı erməni hərbi birləşmələrindən müsadirə olunmuş hərbi texnikaların kiçik bir qisminin qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirilməsi həm Ermənistana, həm də onun havadarlarına göz dağı oldu. Prezident, Ali Baş Komandan İlham Əliyev Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda çıxışı zamanı ..

### AZƏRBAYCANI QƏLƏBƏYƏ APARAN ƏSAS AMİLLƏRİ AÇIQLADI

Azərbaycan Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında hərbiçiləri, Azərbaycan xalqını Zəfər Günü münasibəti ilə təbrik etdi: “Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm. Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!”. «20 il bundan əvvəl həm seçkilər ərəfəsində, həm də andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək və biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq»,-deyən Prezident İlham Əliyev onu da vurğuladı ki, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi: «Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər - sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün». «Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur”, - Prezident bildirib.

### BU 20 İL ƏRZİNDƏ HEÇ VAXT ŞÜBHƏ ETMİRDİM Kİ, GÜN GƏLƏCƏK, XANKƏNDİDƏ HƏRBİ PARAD KEÇİRİLƏCƏK

«Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur, qələbəyə aparan əsas amillər».Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında bildirib.“Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik. Yəni, hazırlıq işləri apararkən, bax, biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək”, - dövlət başçısı qeyd edib.

### «MƏN BİLİRDİM Kİ, XANKƏNDİSİZ, XOCALISIZ BİZİM İŞİMİZ YARIMÇIQ QALACAQ»

Azərbaycan Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında bildirib ki, 44 günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar demək olar ki, təkrarlanırdı: «Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər - sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün».

*Ardı Səh. 4*

# Xankəndidə keçirilən hərbi parad bir daha nümayiş etdirdi ki, Qarabağ Azərbaycandır!

Əvvəli-Səh-3

### «BUNUNLA SEPARATÇILARIN KİTABI BAĞLANDI. ARTIQ AZƏRBAYCANDA SEPARATÇILIĞA YER OLMAYACAQ»

Ali Baş Komandan, Prezident İlham Əliyevin Xankəndi paradındakı çıxışında düşmənə və onun havadarlarına ciddi mesaj verərək bildirmişdir: «Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, Xankəndi şəhərində təşkil olunmuş parada nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Biz bütün vəzifələri icra etmişik".

### «FƏRRUX, SARIBABA-QIRXQIZ VƏ DİGƏR HƏRBİ ƏMƏLİYYATLAR ERMƏNİSTANA GÖNDƏRİLMİŞ MESAJ İDİ»

Prezident İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında deyib ki, son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır: "Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə üç il bundan əvvəl başlamayıb, hələ 1990-cı illərin əvvəlində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada - Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna o qədər inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü orduları var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər».

### «DÖVLƏTİMİZİ, MİLLİ LƏYAQƏTİMİZİ, HƏYAT TƏRZİMİZİ, ƏNƏNƏLƏRİMİZİ QORUMUŞUQ Kİ, HEÇ KİM BİZİM İŞLƏRİMİZƏ BURNUNU SOXMASIN»

Prezident İlham Əliyev hərbi paradda çıxışında bildirib ki, 20 il ərzində Azərbaycan uğurla gedib: «Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi».Ali Baş Komandan həmçinin separatçılara mesajını da ünvanladı: «Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın!».



### «ŞUŞA ƏMƏLİYYATI, TƏBİİ Kİ, 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ XÜSUSİ YERƏ MALİKDİR»

Dövlət başçısı çıxışında bildirdi ki, Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər: «Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir».

Prezident İlham Əliyev hərbi paradda çıxışında bildirib ki, Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq: «Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi».

Bəli, məhz 30 ildən artıq müddətdə həsrətində olduğumuz ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına yönələn fəaliyyətimiz 2020-ci ildə başlayan Vətən müharibəsindən sonra 2023-cü il oktyabrın 15-də Azərbaycan Bayrağının Xankəndidə ucaldılması ilə taclandı. Bu, müasir tariximizdə hər bir azərbaycanlının qüdrətli dövlətin vətəndaşı olduğunun bariz göstəricisidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, əldə etdiyimiz uğurları xalqımız Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinə və Azərbaycan övladlarına, qüdrətli Ordumuzun əsgərlərinə, qəhrəman igidlərimizə borcludur. Prezident İlham Əliyevin Xankəndi şəhərinin mərkəzi meydanında Bayrağımızı ucaltdıqdan sonra xalqımıza müraciəti, "Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi" sözləri 20 il bundan əvvəl Azərbaycan vətəndaşlarının nə dərəcədə müdrik qərar verdiyini bir daha ortaya qoydu. Bu müraciət, eyni zamanda, bundan sonra qan tökülməsinin qarşısının alınmasına, insanların yaşamaq hüququnun təmin olunmasına, eləcə də gündən-günə cənnətə çevrilən Qarabağımızda Azərbaycanın suverenliyinin təmin edilməsinin – ölkəmizin qazandığı Zəfərin məntiqi nəticəsi idi.

### «MÜZƏFFƏR SİLAHLI QÜVVƏLƏRİMİZ DÖYÜŞ MEYDANINDA CƏSARƏT, QƏHRƏMANLIQ, FƏDAKARLIQ GÖSTƏRƏRƏK DÜŞMƏNİ BİZİM ƏZƏLİ TORPAQLARIMIZDAN QOVMUŞDUR»

Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında deyib ki, bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur: «Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır».«Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq»,-deyən dövlətimizin başçısı onu da bildirib ki, düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur: «Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi».

Azərbaycan Prezidenti dəfələrlə çıxışlarında qeyd edir ki, ədaləti bərpa etdik, xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında öz vətəndaşlıq borcumuzu şərəflə yerinə yetirdik: ««Qarabağ Ermənistandır və nöqtə» deyən düşmən bu gün «Qarabağ Azərbaycandır!» deyir. Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq». Bəli, bu gün qalib lider Prezident İlham Əliyevin irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir Yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar. Dövlət başçısı İlham Əliyevin söylədiyi kimi, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü topladıq və sonunda Zəfər bizim oldu. Bəli, üçtərəfli bəyanatın imzalanması ilə münaqişənin hərbi mərhələsi başa çatdı.

### «BİZƏ YENİ MÜHARİBƏ LAZIM DEYİL»

«Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik»,-deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada Müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm: «Yəni, biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın!». Prezident İlham Əliyev onu da vurğuladı ki, dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi: «Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik».Bəli, bu gün bizə xor baxanlar bilməlidirlər ki, bizə xor baxanlar, torpağımıza göz tikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, "Dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq: «Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!». Çünki Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, uğurlu siyasəti haqq işidir! Çünki Qarabağ Azərbaycandır! Qarabağ Azərbaycanındır!

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan islam dünyasının aparıcı dövlətidir

***Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, dünyanın nüfuzlu təşkilatlarının ölkəmizin mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. Bu gün Azərbaycan bütün dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanınır. Sabitlik adası kimi tanınan Azərbaycan inamlı inkişafını davam etdirir, ölkəmiz sülh və əmin-amanlıq şəraitində yaşayır. Dünyanın ən mötəbər tədbirləri üçün Azərbaycan əlverişli məkana çevrilib.***




## *Prezident İlham Əliyev: "Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır"*

Son illərdə Özbəkistanla Azərbaycan arasında münasibətlər keyfiyyət baxımından yeni inkişaf mərhələsinə qədəm qoyub. Qarşılıqlı səmərəli əməkdaşlıq üçün yeni perspektivlər açılmaqdadır. Azərbaycan və Özbəkistan dövlət müstəqilliklərini əldə etdikdən sonra tarixi dostluq və qardaşlıq münasibətləri daha da inkişaf etdirildi və uzun illərin sınağından çıxaraq bugünkü səviyyəsinə gəlib çatıb. Noyabrın 9-da Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildiriyi kimi, Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq uğurla inkişaf edir:"Ötən il mən Özbəkistana bir dövlət səfəri və iki işgüzar səfər etmişəm. Hər səfərimdə Özbəkistanda hərtərəfli islahatların nəticələrinin, sosial və iqtisadi inkişafın şahidi oluram".

### AZƏRBAYCAN GƏLƏCƏK İNKİŞAF STRATEGİYASINI DÖVRÜN TƏLƏBLƏRİNƏ UYĞUN OLARAQ MÜƏYYƏNLƏŞDİRİB

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) üzvü kimi Azərbaycan təşkilatın işində fəal iştirak etdiyini bildirən Cənab Prezident ötən ay ECO Nazirlər Şurasının iclasının Şuşada keçirildiyini bildirib: "Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub və Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Hər 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. İqtisadi cəhətdən qüdrətli dövlətə çevrilən ölkəmizin coğrafi mövqeyi, böyük tranzit potensialı, nəhəng regional layihələri, eləcə də əlverişli biznes mühiti dünya ölkələri ilə qarşılıqlı etimad əsasında əməkdaşlığın qurulmasında mühüm amillər sırasındadır. İki dəhlizin Azərbaycandan keçən hissələri tam hazırdır. Biz hazırda bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükaşırma qabiliyyətinin genişləndirilməsi üzərində işləyirik".

Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dolları həcmində sərmayə qoyulduğunu diqqətə çəkən Cənab Prezident bunun 200 milyard dollarının qeyri-neft sektorunun payına düşdüyünü bildirib. Azərbaycanın ECO-nun Təmiz Enerji Mərkəzinin ev sahibi kimi rəsmi olaraq təsdiqlənməsini məmnuniyyətlə qeyd edən dövlətimizin başçısı bildirib: "Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, biz bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetiririk. Azərbaycanın bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir".

Azərbaycanın yaxın gələcəkdə yaşıl və hidrogen enerjisinin ixracatçısına çevriləcəyini bildirən dövlət başçımız dünyanın aparıcı yaşıl enerji şirkətləri olan xarici investorlarla imzalanan sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatacağının qeyd edib. Bu ilin oktyabr ayında Azərbaycanda "Masdar" şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasının açılışı olduğunu iştirakçıların diqqətinə çatdırıb:"Bu, Xəzər dənizi və Qafqaz regionunda ən böyük günəş elektrik stansiyasıdır".

### İŞĞAL DÖVRÜNDƏ ERMƏNİSTAN AZƏRBAYCANIN DOQQUZ ŞƏHƏRİNİ VƏ YÜZLƏRLƏ KƏNDİNİ YER ÜZÜNDƏN SİLİB

Azərbaycan Prezidenti çıxışında Ermənistanın Azərbaycanın 20 faizə yaxın ərazisini təqribən 30 il ərzində işğal altında saxladığını diqqətə çatdıraraq Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulduğunu, qaçqın və məcburi köçkünə çevrildiyini diqqətə çəkib: "2020-ci ildə Azərbaycan BMT Nizamnaməsindən irəli gələn legitim özünümüdafiə hüququndan istifadə edərək Vətən müharibəsində Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində kağız üzərində qalmış dörd qətnamənin icrasını özü təmin etdi.

İşğal dövründə Ermənistan Azərbaycanın doqquz şəhərini və yüzlərlə kəndini yer üzündən silmiş, İslam dininə məxsus mədəni və tarixi irsimizi dağıtmış və təhqir etmişdir. 67 məsciddən 65-i dağıdılmış, qalanları isə inək və donuz saxlanılması üçün tövlə kimi istifadə olunmuşdur".

Siyasi gücə, iradəyə malik Böyük Lider, Azərbaycan Prezidenti İlham Əliyevin Sərkərdəlik məharəti Azərbaycan xalqını Müzəffər xalq kimi dünyaya tanıtdı, ZƏFƏR qazanmış xalq olaraq hərbi gücümüzü dünyaya göstərə bildik. Tariximizi yazmaqla dünya hərb tarixinə də yeni bir səhifə açdıq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən müharibənin gedişində möhtəşəm qələbələr qazanaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni səhifə, salnamə oldu. Ölkəmizdə xalq-iqtidar həmrəyliyi mövcudluğu, güclü ordumuz, milli-mənəvi dəyərlərə söykənən cəmiyyətin formalaşması da qələbəmizi şərtləndirən amillər sırasındadır. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu erməniyə, eləcə də bütün dünyaya göstərə bildi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Prezident İlham Əliyev qətiyyətini, siyasi iradəsini nümayiş etdirdi, prinsipial mövqeyindən dönmədi. Dövlət başçısının mövqeyi ardıcıl olaraq dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində də özünü büruzə verdi və ölkəmizə qarşı olan hücumları darmadağın etdi.

***Zümrüd BAYRAMOVA***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər




"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il noyabrın 13-də YAP Sumqayıt şəhər təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Sumqayıt Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.



Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonra keçirilən dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib.

# Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti YAP nümayəndə heyətini qəbul edib





***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində (ŞKTC) səfərdədir. Səfər çərçivəsində noyabrın 13-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar YAP nümayəndə heyətini qəbul edib.***

Görüşdə xalqlarımız arasında ortaq dəyərlərə və tarixi ənənələrə əsaslanan dostluq və qardaşlıq münasibətlərindən, Türk dünyasında çoxşaxəli əməkdaşlığın əhəmiyyətindən bəhs edilib, müştərək hədəflər və qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Qonaqları salamlayan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar xalqlarımız arasında qardaşlıq münasibətlərinin sarsılmaz olduğunu və nümunəvi xarakter daşıdığını vurğulayıb. O, bu ilin oktyabr ayında rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycanda səfərdə olduğunu məmnunluqla xatırlayaraq Bakıda təşkil olunan Şimali Kiprin Mədəniyyət Günləri çərçivəsində keçirilən tədbirlərin önəmini diqqətə çatdırıb.

Türk xalqları arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin böyük əhəmiyyətə malik olduğunu söyləyən Ersin Tatar Türk Dövlətləri Təşkilatının (TDT) bu baxımdan önəmli platforma olduğunu söyləyib. O, TDT-nin 2022-ci ilin noyabr ayında Səmərqənddə keçirilən IX Zirvə Görüşündə Şimali Kipr Türk Cümhuriyyətinin təşkilata müşahidəçi üzv statusunda qəbul olunmasının əhəmiyyətindən bəhs edib, Azərbaycanın qardaş dəstəyinin Şimali Kipr Türk xalqı tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

"Türkiyə ilə bərabər Azərbaycan da Şimali Kipr türklərinin yanındadır. Buna görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına sonsuz dərəcədə minnətdarıq",- deyən E.Tatar Azərbaycanın suverenliyini və konstitusiya quruluşunu bərpa etməsini tarixi hadisə kimi dəyərləndirib. Şimali Kipr Türk xalqının Azərbaycan xalqı ilə həmrəy olduğunu bildirən Ersin Tatar "Sizin qətiyyətli mübarizəniz, Qarabağ Zəfəriniz bizi ürəkdən sevindirib. Şimali Kipr xalqı hər zaman yanınızdadır" ,- deyib.

Dəvətə, səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Şimali Kipr Türk Cümhuriyyətinin yaradılmasının 40-cı ildönümü münasibətilə Yeni Azərbaycan Partiyası adından və öz adından təbriklərini çatdırıb. YAP nümayəndə heyətinin ötən ilin dekabr ayında Şimali Kipr Türk Cümhuriyyətinə səfərini məmnunluqla xatırlayan Tahir Budaqov müxtəlif sahələri əhatə edən çoxşaxəli və qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanların mövcud olduğunu, xalqlarımız arasında münasibətlərin yüksələn xətt üzrə inkişafının mühüm əhəmiyyət daşıdığını vurğulayıb.



YAP Sədrinin müavini Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin dost ölkə və xalqlarla, o cümlədən Şimali Kipr Türk Cümhuriyyəti ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini, Türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirdiyini vurğulayıb. O, TDT-nin IX Zirvə Görüşündə Türkiyə ilə Azərbaycanın ortaq mövqeyi və siyasi iradəsi əsasında Şimali Kipr Türk Cümhuriyyətinin təşkilata müşahidəçi üzv statusunda qəbul olunmasının mühüm tarixə hadisə kimi böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, uzun müddət davam edən işğal faktına və separatizmə birdəfəlik son qoyması bütövlükdə regionda yeni situasiya yaradıb, həm respublikamız, həm də bölgə dövlətləri, o cümlədən dost və tərəfdaş ölkələr üçün yeni perspektivlər müəyyən edib. "Azərbaycanın formalaşdırdığı yeni geostrateji reallıqlar Türk dünyasında da etibarlı təhlükəsizlik və əməkdaşlığın təmin edilməsi baxımından xüsusi önəm daşıyır, regiona rifah və inkişaf vəd edir" ,- deyən Tahir Budaqov xalqlarımızın bundan sonra da sıx əməkdaşlıq və birgə təşəbbüslər nəticəsində mühüm nailiyyətlər qazanacaqlarına əminliyini ifadə edib.

Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, hakim Ulusal Birlik Partiyasının sədri Ünal Üstünün də iştirak etdiyi görüşdə Türk dövlətlərinin hakim siyasi partiyaları arasında əməkdaşlığın dərinləşdirilməsinin də diqqət mərkəzində olduğu vurğulanıb. Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvləri Pərvin Kərimzadə və Rəşad Mahmudov, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin məsləhətçisi Nizami Məmmədov daxildir.

# Fransanın "Bastion" zirehli maşınları Ermənistana göndərilib


≡ MENU ouest france
Abonnez-vous Se connecter
Accueil › Europe › Arménie
La France livre des véhicules de transport de troupes Bastion à l'Arménie
Première livraison de blindés français à l'Arménie : des Bastion fabriqués par Arquus sont partis en Arménie au lieu de l'Ukraine. Ce serait la première livraison puisque la France pourrait aussi fournir 50 blindés VAB MK3.
Ouest-France
Philippe CHAPLEAU.
Modifié le 13/11/2023 à 11h49
Publié le 13/11/2023 à 11h36
Abonnez-vous
LIRE PLUS TARD
PARTAGER
Newsletter International
Chaque mardi, retrouvez
Des Bastion à fond de cale avant leur livraison en Arménie. | DR X
ouest france Publicité

***Ukrayna fransız hərbi texnikasının zəifliyini dilə gətirərək, "Arquus" şirkətinin istehsalı olan "Bastion" zirehli maşınlarından imtina edib. Fransa isə bu ziyandan qurtulmaq üçün həmin zirehli maşınları Ermənistana göndərib.***

AZƏRTAC xəbər verir ki, Fransanın "Ouest-France" portalında "Fransa Ermənistana "Bastion" tipli maşınlar çatdırıb" sərlövhəli məqalə dərc olunub. Məqalədə bildirilir ki, "Arquus" şirkəti tərəfindən istehsal olunan "Bastion" tipli yüngül zirehli maşınlar əvvəlcə Ukrayna üçün nəzərdə tutulurdu. Lakin Kiyev artilleriya atəşi və tank əleyhinə raketlərdən qorunmaq üçün həmin maşınları çox zəif olduğunu bildirərək onlardan imtina edib. Paris isə Ukraynanın zəif hesab etdiyi həmin maşınları himayədarlıq etdiyi Ermənistana göndərib. Bu maşınların Gürcüstanın Poti limanından keçərək dəmir yolu ilə Ermənistana tərəf aparıldığı bildirilir.

Həmçinin məqalədə Fransa xarici işlər nazirinin


≡ MENU ouest france
Abonnez-vous Se connecter
ouest france Publicité
Les Bastion vont rejoindre l'Arménie par voie ferrée. | X
Ces véhicules de transport de troupes *de 12,5 tonnes* étaient initialement destinés à l'Ukraine, mais Kiev les a jugés trop peu protégés contre les tirs d'artillerie et les missiles antichars.
Ils auraient transité par le port géorgien de Poti puis pris la direction de l'Arménie par la voie ferrée.

Ermənistana səfəri, səfər zamanı Parisin bu ölkəyə hərbi texnika çatdırılmasına razılıq verməsi, eləcə də Ermənistan müdafiə nazirinin Fransaya səfəri, bu səfər çərçivəsində bir neçə sazişin imzalanmasından bəhs edilib.

Müəllif sonda qeyd edib ki, Azərbaycan Xarici İşlər Nazirliyi Fransanın Ermənistana zirehli texnika tədarükünü pisləyib və Fransanın bu addımının regionda vəziyyəti gərginləşməyə doğru aparacağını bildirib.

***Dünyanın hansısa ölkəsinin Ermənistana hərbi sahədə yardım etməsi, yaxud belə bir niyyətdə olduğunu açıq şəkildə bəyan etməsi həm təəssüf, həm də təəccüb doğurur. Çünki işğalçılığı dövlət siyasəti olaraq qəbul edən, qonşu ölkələrə qarşı əsassız şəkildə ərazi iddiasında olan, terrorçuluğa, separatçılığa meyilli olan bir ölkəyə hərbi sahədə yardım etmək həmin ölkəni qarşıdurmalara sövq etmək, müharibələrə, insan tələfatına rəvac vermək deməkdir. Bu baxımdan Fransa kimi, ABŞ kimi dünya ölkələrinin Ermənistana hərbi dəstək göstərməsi, hətta belə bir niyyətdə olduğunu bəyan etməsi elə dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən pislənilməli, bunun qarşısı da alınmalıdır.***

# Hərbi dəstək adı ilə regional təhlükəsizliyi pozmaq niyyəti



Hərbçilərin peşəkar və döyüş hazırlığı sahəsində Pentaqonun Ermənistana yardım etməyə başlayacağı barədə Ermənistanın Müdafiə Nazirliyinin saytında məlumat yayılması heç də sıradan bir informasiya deyil. Bu, ABŞ hökumətinin işğalçı ölkənin hərbi hazırlığının artırılması niyyəti barədə xəbərdir. Xəbərə əsasən, Ermənistan müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-leytenant Edvard Asryan və ABŞ-ın Avropa Komandanlığı komandirinin müavini Stiven Başam arasında Ştutqart görüşündə razılıq əldə olunub. "Silahlı qüvvələrin peşəkarlaşdırılması, hərbi təhsil və döyüş hazırlığı, təlimlər və başqa istiqamətlərdə əməkdaşlığın yeni sahələrinə başlamağa ABŞ-ın hazır olduğu barədə Başam bildirib", deyə Ermənistan Müdafiə Nazirliyinin saytında yayılan məlumatda qeyd olunur. Qeyd olunur ki, həmçinin əməkdaşlıq sahələrinə artıq mövcud olan proqramlardan əlavə komandanlıq və idarəetmə sisteminin modernləşdirilməsi, sülhməramlılıq və hərbi tibb də daxildir. Heç də soyuqqanlıqla qarşılanmamalı olan bu xəbərə, daha dəqiq desək, ABŞ hökumətinin işğalçı ölkənin hərbi hazırlığının artırılması niyyəti barədə məlumata bir dənə də beynəlxalq təşkilat tərəfindən reaksiya verilmir və elə təəssüf doğuran, təəccüblü olan da budur.

"Görüş zamanı Ermənistan-Amerika hərbi əməkdaşlığının inkişafı məsələləri müzakirə edilib", deyə nazirliyin məlumatında bildirilir. Qeyd olunur ki, bundan əlavə, generallar regional təhlükəsizlik məsələlərini də müzakirə ediblər. Maraqlıdır, ABŞ Ermənistanla hərbi əməkdaşlığı dərinləşdirməkdə hansı məqsədləri güdür? Yaxud, regional təhlükəsizlik məsələlərinin, həmin təhlükəsizlik mühitini pozan işğalçı ölkə ilə müzakirəsi ABŞ kimi bir ölkənin nəyinə lazımdır? Ümumiyyətlə, regional təhlükəsizlik məsələləri ilə bağlı niyə region ölkələri deyil, kənar bir ölkə olan ABŞ, özü də məhz Ermənistanla müzakirələr aparmalıdır axı? Əvvəla, Ermənistanda və yaxud regionda baş verən hadisələrə qarışmağa bu hegemon ölkəni sövq edən, maraqlandıran nədir? Digər tərəfdən isə, məhz regionun təhlükəsizliyinə xələl gətirən, təhlükəsizliyi pozmaq niyyətində olan ölkə ilə müzakirələr niyə aparılmalıdır? Əgər ABŞ üçün həqiqətən də region ölkələrinin təhlükəsizliyi maraqlı olsaydı, bu müzakirələri Ermənistanla yox, məhz Cənubi Qafqaz regionunda təhlükəsizliyi təmin edən ölkə ilə, yəni Azərbaycanla apardı. Bax elə bu məqam məhz beynəlxalq təşkilatlar, ələlxüsus da 30 ilə yaxın müddətdə icrasız qalan dörd qətnaməsi məhz Azərbaycanın hərbi əməliyyatları sayəsində reallaşdırılan BMT tərəfindən Vaşinqtonun diqqətinə çatdırılmalı, xatırladılmalı idi, amma bunu hələlik müşahidə edə bilməmişik.

ABŞ kimi bir ölkə bilmirmi ki, kənardan dəstək hesabına xeyli silah-sursat ələ keçirən Ermənistan son vaxtlara qədər Azərbaycana qarşı işğalçılıq müharibəsi aparırdı? Bilmirmi ki, Ermənistan hələ də təkcə Azərbaycana deyil, qonşu ölkələrə qarşı da əsassız ərazi iddiaları ilə çıxış edir? Belə bir ölkəyə hərbi dəstək göstərməklə regionda təhlükəsizliyin müzakirəsi əlbəttə ki, bir araya sığan deyil. Yaxud, Fransa və Hindistanın da işğalçı Ermənistana hərbi yardımı qətiyyən təhlükəsizliyin təminatı məqsədi daşıya bilməz, əksinə, regionda daha böyük təhlükələrə gətirib çıxara bilən qarşıdurmalara, müharibələrə səbəb olar. Xüsusən də belə addımların, yəni, hərbi yardımların, dəstəyin məhz Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanmasına mənfi təsir etdiyi də təkzib edilə bilməz və eləcə də Ermənistanla Türkiyə arasında diplomatik münasibətlərin bərpasına böyük bir maneə, əngəl olduğu da bəllidir. O zaman Ermənistanın sülh sazişi bağlamasına, qonşu ölkələrlə diplomatik münasibətlərinin bərpasına niyə mane olunur və regional təhlükəsizliyi pozmaqdan başqa məqsədləri nədən ibarət ola bilər?

Sözsüz ki, ABŞ-ın Ermənistana hərbi yardımı və hərbçilərinin yetişdirilməsi Vaşinqtonun İrəvanın hesabına region ölkələrini diqqətdə saxlamaq cəhdidir. Bilirik ki, Ermənistan silahlı qüvvələri nə qədər hazırlıqlı olsalar da, nə qədər dəstək alsalar da, Rusiya, Azərbaycan və Türkiyəyə qarşı heç vaxt uğur qazana bilməzlər və bilməyəcəklər də. Bunu bilə-bilə ABŞ hərbi yardımdan dəm vurursa, dəstək göstərmək niyyətini gizlətmirsə, deməli, Ermənistan vasitəsilə region ölkələrini narahat etmək, diqqətini digər istiqamətlərdən yayındıraraq, özünə cəlb etmək niyyəti güdür. Bunun fərqində olan Ermənistan hakimiyyətinin məqsədi isə, Rusiyanın təsirindən qurtularaq, Qərb ölkəsinə yaxınlaşmaqdır. Amma Ermənistanın bu məqsədinə nail olması üçün ilk növbədə Azərbaycan və Türkiyə ilə yaxşı münasibətlərdə olması, ən azından "yola getməsi" gərəkir. Hətta, Qərb də bilir ki, Ermənistanın öz məqsədinə nail olması üçün qonşu ölkələrlə münasibətləri normallaşdırılmalıdır və bunu bilərəkdən həmin ölkəni silahlandırmaları, bununla da münasibətlərin normallaşmasına mane olmaları o deməkdir ki, İrəvan və ermənilər haqqında düşünən, hayların halına yanan yoxdur. Yəni, hərbi dəstək barədə danışıqlar da, region barədə müzakirələr də həmin xarici ölkələrin öz maraqları naminədir və bu maraqlar naminə regional təhlükəsizliyi pozmaq üçün burada Ermənistan, həmişəki kimi bir alət olaraq istifadə edilir.

ABŞ indi Ermənistana hərbi dəstək göstərməklə, həmin ölkəni Rusiyadan və Moskva tərəfindən yaradılan KTMT-dən "uzaqlaşdırmaq" niyyəti güdür. Məhz bu məqsədlə də Vaşinqton bu yaxınlarda hərbi məsələlərlə bağlı razılaşdırılma ilə diqqəti özünə cəmləşdirir. Amerika siyasətçiləri özləri də belə qənaətə gəliblər ki, Qarabağdakı məğlubiyyəti fonunda Ermənistanın Rusiyadan narazı qalmasından, müharibə bitdikdən sonra İrəvanın Moskvadan haqsız və yersiz olmasına baxmayaraq, narazılığından istifadə edən Vaşinqton həmin ölkədə öz təsirlərini genişləndirmək imkanı əldə edib. Öz diasporlarının təsiri ilə bir çox ermənilər məğlubiyyətə görə məsuliyyətin Rusiyanın üzərində qalmaqda olduğu qənaətindədirlər deyə, ABŞ da zənn edir ki, belə bir qənaət və şərait Ermənistanı məhz Rusiyadan aralamaq, uzaqlaşdırmaq üçün onlar tərəfindən əldən verilməməlidir. Ona görə də belə vəziyyətdən istifadə etmək niyyətindədir. Lakin reallıq budur ki, KTMT-nin qarşılıqlı müdafiə öhdəlikləri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinə şamil edilmir. Rusiyanı müdafiə etmək, tərəfində durmaq kimi bir fikrimiz yoxdur, amma həqiqət budur ki, KTMT də, Moskva da günahlandırıla bilməz və bu, tamamilə əsassız, məntiqsiz və mənasızdır. Buna baxmayaraq, hələ də Rusiyanın günahkar olduğu fikrinin Ermənistan üçün qəbuledilən olması Amerika tərəfindən məharətlə istifadə edilir və öz məqsədləri üçün bir bəhanə olaraq yararlanılır. ABŞ qətiyyən nəzərə də almır ki, vəziyyətdən yararlanmaq istəyi regionda gərginliyi artıra, münaqişəni qızışdıra və təhlükəsizliyə təhdid yarada bilər. Vaşinqtonun belə bir mövqeyi nədənsə beynəlxalq təşkilatların heç diqqətini belə cəlb etmir, halbuki regional təhlükəsizliyin təminatı üçün maraqlı olduqlarını bəyan edirlər. Amma həmin o beynəlxalq təşkilatları həqiqətən də regionda təhlükəsizlik maraqlandırsaydı, ən azından bununla bağlı reaksiya da olsa verərdilər.

Eyni zamanda ABŞ, məhz Ermənistandan istifadə edərək, yəni İrəvan vasitəsilə Rusiyanı izləyəcəyi, casusluq edə biləcəyi qənaətindədir deyə, bu qədər canfəşanlıq edir və görünür, Kreml də son zamanlar boş yerə qıcıqlanmayıb, əbəs yerə də rəsmilər tərəfindən İrəvana qarşı kəskin fikirlər səsləndirilmirmiş. Axı dünyada ən böyük ABŞ səfirliklərindən biri İrəvanda yerləşir və bu fonda Vaşinqtonun Ermənistanı özünün regional təsir qalasına çevirmək niyyəti də təkzib edilə bilməz. Bu niyyət həm də, ABŞ-ın tələblərinə baxmayaraq, Rusiyaya qarşı sanksiyalar tətbiq etməkdən imtina edən Gürcüstan üzərində də öz təsirini bərpa etmək planı ilə də üst-üstə düşür deyə, hərbi razılaşma, hərbi dəstək adı ilə regional təhlükəsizliyi pozmaq məqsədi ilə İrəvandan məharətlə istifadə edilir. ABŞ məhz Ermənistandan istifadə etməklə, İran, Rusiya, Türkiyə və hətta Azərbaycana qarşı təmin edə biləcəyi strateji təsir rıçaqları barədə düşünür. Doğrudur, ABŞ-ın Ermənistanla bağlı geosiyasi layihəsinə qarşı durmaq heç də asan hesab oluna bilməz və bunu nəzərə alan Vaşinqton belə bir addım atır. Amma nəzərə almaq lazımdır ki, İran, Rusiya, Türkiyə və Azərbaycan olmaqla, dörd ölkənin birgə fəaliyyəti, daha dəqiq desək, onlar arasında daha sıx hərbi-strateji koordinasiya təhlükəni azalda bilər və hətta öhdəsindən də gəlinər. Bununla belə unutmaq olmaz ki, Amerika Birləşmiş Ştatları Ermənistan üzərində bütün sahələrdə, xüsusən də hərbi sahədə təsirini tədricən genişləndirməkdə davam edərsə, üstəlik, bir gün də bu ölkənin revanşist fantaziyalarına dəstək vermək qərarına gələrsə, o zaman müharibə fonunda regional sabitlik, təhlükəsizlik risk altında qala bilər və hər halda bunu ermənilər olmasa da, digər sadalanan ölkələr nəzərdən qaçırmamalıdırlar. Ələlxüsus da, bu vaxta qədər Cənubi Qafqaz regionunda təhlükəsizliyin təmin olunmasına çalışdıqlarını bəyan edən beynəlxalq qurumlar da nəzərdən qaçırmamalıdırlar ki, hansısa xarici ölkənin region ölkələrindən birinə, özü də işğalçı ölkəyə hərbi dəstək göstərməsi təhlükəsizliyin təminatına ciddi zərbə deməkdir. Nəzərə almalıdırlar ki, təhlükəsizliyi məhz Azərbaycan tərəfindən təmin olunan regiona kənar müdaxilə, işğalçı ölkə olan Ermənistana məhz ABŞ, Fransa və Hindistanın misalında hərbi dəstək göstərmək niyyətinin bəyan edilməsi belə, münaqişənin qızışdırılmasına, eskalasiyaya səbəb ola bilər və nəticədə də bundan sonra bölgənin, regionun təhlükəsizliyi sual altında qala bilər. Hər halda, hansısa ölkənin regional sabitliyi, təhlükəsizliyi risk altında qoya biləcək istənilən addımına, hətta niyyətinə belə beynəlxalq təşkilatlar tərəfindən reaksiya verilməli, ən azından, qəti şəkildə narazılıq ifadə edilməli, pislənilməli, hətta bu hərəkətlərin qarşısı da alınmalıdır. Çünki hərbi dəstək adı ilə regional təhlükəsizliyi pozmaq niyyəti göz önündədir.

***İnam Hacıyev***

# XANKƏNDİ - 20 ilin qüruru

***Prezident İlham Əliyev: Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.***



Təhlil

Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradı ötən 20 ilin nəticəsi kimi qürurla qarşıladıq. Və elə paradı seyr edə-edə də bu şəhəri -xanların şəhərini necə olmuşdu ki, gədələr zəbt etmişdi düşüncələrinə daldıq. Bu şəhər işğal oluna bilməzdi, lakin nankor erməni buna nail olmuşdu. Çünki bu şəhər də Qarabağın və Şərqi Zəngəzurun digər əraziləri kimi onlara hədiyyə verilmişdi, qurban getmişdi, satılmışdı, bilmirəm, hər nə isə, ancaq işğal olunmamışdı. Çünki bu şəhərin işğal olunmasına onun coğrafi mövqeyi də imkan verə bilməzdi, xanlara məxsus olması da. İki-üç gədə-güdənin alqı-satqısının qurbanı olmuşdu bu şəhər. Bu xanların şəhəri 1991-ci il dekabrın 26-da Ermənistan Silahlı Qüvvələri və Qarabağdakı erməni separatçıları tərəfindən işğal ediləndən sonra hələ yaradılan qondarma Dağlıq Qarabağ Respublikasının paytaxtı da olmuşdu.



## Xanın kəndi Xankəndi

Xankəndi digər Azərbaycan şəhərlərinin əksəriyyətindən nisbətən cavan olması ilə fərqlənir. Arxiv sənədlərinə görə şəhər XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığı başçılarının xanların istirahəti üçün yaşayış məskəni kimi salınır. Xanların fəaliyyətinə maksimum şərait yaradılması üçün məskən xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində salınır. Bu zaman onun xanlığın digər vacib şəhər və kəndlərinə, Ağdama, Xocalıya, Malıbəyliyə, Kərkicahana və digərlərinə yaxın olması da əsas götürülüb. Belə ki, yeni yaşayış məntəqəsi kimi digər yaşayış məntəqələrində də ancaq yerli əhali, azərbaycanlılar yaşayırdı. İlk illər yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında "Xanın kəndi" kimi tanınır. Qısa bir müddətdən sonra qəsəbə Xankəndi adını alır.Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanmışdı.Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret verdi. Həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olundu.1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın adı ilə "Stepanakert" adlandırılmışdır. 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə şəhərin əvvəlki-"Xankəndi" adı bərpa edilmişdir.İnzibati cəhətdən Xankəndi şəhər ətrafı dairəsinə Xankəndi şəhəri və Kərkicahan şəhər tipli qəsəbəsi daxildir. Sahəsi 8 km²-dir. Paytaxt Bakıdan 329 km uzaqlıqda yerləşir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 1 yanvar 2012-ci il tarixinə olan rəsmi məlumatına əsasən Xankəndi şəhərinin 53,3 min nəfər, Kərkicahan qəsəbəsinin isə 2 min nəfər əhalisi vardır.İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xankəndi şəhərində həmin tarixdən Rusiya sülhməramlı qüvvələrinin mərkəzi qərargahı yerləşdirilmişdir.

## Antiterror tədbiri ilə xilas olan Xankəndi

2020-ci ildən ötən 3 il ərzində Azərbaycan Xankəndidə yaşayan erməni əhalinin təhlükəsizliyi, burada rahat yaşaması üçün dəfələrlə yol göstərdi. Burada yaşayan erməni əhali isə, sözsüz, bu təkliflərlə razılaşardı. Lakin xunta rejimi, separatçı qüvvələr necə ki, 30 ildə erməni xalqını əllərində oyuncaq olaraq öz mənafeləri üçün istifadə edirdi, onların hesabına Azərbaycan torpaqlarında at oynadırdı, İkinci Vətən müharibəsindən sonra da niyyətlərindən əl çəkmədilər. Erməni əhalini inandırmağa çalışdılar ki, bu torpaqlarda sizin üçün yeni həyat qurulacaq, burada yağ-bal içərisində yaşayacaqsınız. Səsini çıxaranın isə ölümünə səbəb oldular. Çünki bu separatçıların damarlarından qan yox, Azərbaycan xalqına qarşı kin, nifrət axır. Onlar illərdir ki, bu iki xalqın arasına nifaq toxumu səpib, cücərdib, hər il biçib "məhsulunu" götürməklə məşğuldurlar.Elə məhz bu kimi iyrənc niyyətlərinə görə də 44 günlük Vətən müharibəsindəki uğursuzluqlarını da nəzərə almaq istəmədilər. Düşündülər ki, yenidən güc toplayıb dirçələ, Azərbaycan torpaqlarına yenidən sahib çıxa bilərlər. Unutdular ki, bu torpaqları axı əslində işğal etməyib, hazır tikənin sahibi olublar. Həmin illərdən isə 30 ildən artıq zaman keçib. 44 gündə 30 illik barrikadalarının yerlə yeksan olunduğunu, "böyük Ermənistan" xülyasının parça-parça edilib Azərbaycan əsgərinin ayağının altına səpələnməsini unutdular. Unutduqca da Ermənistan-Azərbaycan münasibətlərini tərsə doğru çəkdilər.Erməni xalqı ayağa qalxdı.

Təslim olduğunu, qonşunun torpaqlarının özünə qaytarılmasını, qan tökülməsinin dayandırılmasını tələb etdi. Hətta Ermənistan dövlət rəsmisi bu torpaqların Azərbaycana məxsus olduğunu bəyan etdi. Lakin separatçı qüvvələr-90-cı illərin saqqallılarının davamçıları bir oldular, xalq, dövlət bir, lakin bu böyük qüvvə terror qruplaşmasının qarşısını ala bilmədi. Ortada isə əziyyət çəkən xalq oldu. Həm də hər iki xalq.Lakin bircə günün içərisində peşman oldular. Gördülər ki, onları illərdir, başdan çıxaran terrorçu qruplaşma imiş. O qruplaşma ki, onlar bu iki xalq arasında münaqişə üçün təlim alıb, silahlandırılıb, bunun üçün maliyyələşdiriliblər. İki xalq arasında nifaq toxumu əkmək üçün kimlərinsə quluna çevriliblər.Sentyabrın 19-da bu terrorçulara qarşı Azərbaycanın 23 saat ərzində həyata keçirdiyi antiterror tədbiri zamanı yenidən yerlə yeksan olan silah-sursat və texnikalarına baxdıqca, bir daha səhv yolda olduqlarını təsdiqlədilər və bu zaman yenidən ağ bayraq qaldırdılar.Elə bir gülünc vəziyyətə düşdülər ki, bəlkə də dünyada belə hadisə yaşanmamışdı. Məxsus olduqları dövlət onları tanımadığını, haqlarında nə cəza lazımsa, görülməsini bildirdi. Beləliklə, ikitərəfli danışıqlara getməyə, Qarabağda və Şərqi Zəngəzurda yaşamaq üçün nələrə boyun əyməli olduqlarını qəbul etmək üçün Yevlağa gəlməyə razı oldular. Gəldilər və onların qarşısına qoyulan tələblərə razı oldular.Baxmayaraq ki, onların təklifi də nəzərə alındı, hətta qısa zamanda elektrik enerjisinə olan tələbatları də ödəndi, lakin onlar qalmağı yox, getməyi məsləhət bildilər və Xankəndini tərk etdilər. Burada ermənilərin düşündüyü yeganə bir məsələ ola bilərdi: dalaşanda elə dalaş, barışmağa üz saxla. Görünür, ermənilər bu üzü saxlamadıqlarını aydın dərk etdikləri üçün Xankəndini öz istəkləri ilə tərk etdilər.Beləliklə, Xankəndi birgünlük antiterror tədbirlərinin nəticəsi olaraq xilas oldu, anası Azərbaycana qovuşdu.

## Zəfərimizin 3-cü ilində yeni Zəfər sevinci

2020-ci ilin 44 günlük savaşından sonra bəs Xankəndi, Xocalı, Xocavənd, deyənlər, əldə etdiyimiz böyük Zəfərə kölgə salmaq fikrində olanlar da oldu. Lakin bunu dərk etmək o qədər çətin deyildi ki, elə bu Zəfər Qarabağ və Şərqi Zəngəzurda digər torpaqlarımızın da azadlığına aparan bir yoldur. Sadəcə bizim zamana ehtiyacımız var idi. Zaman yetişməli, nəzərdə tutulmuş proseslər bir-birinin ardınca həyata keçirilməli idi ki, digər torpaqlarımızın da azadlığını görə bilək. Belə də oldu. Dövlətimizin başçısının özünün də dediyi kimi, nəyi nə vaxt, necə etməyi gözəl bilməsi sübut etdi ki, O, bir Prezident kimi dediyi sözü həyata keçirməyi də gözəl bilir. Hadisələrin axarı elə bir sonluqla nəticələndi ki, bir vaxtlar boş-boş danışanların səsini birdəfəlik batırdı. Böyük Zəfərimizin 3-cü ildönümü ərəfəsində Xankəndi də, Xocalı və sair azad olundu. Həm də bunu günlər yox, saatlar həll etdi.Noyabrın 8-də, Zəfər Günü Xankəndidə keçirilən parad 3 il öncəki Qələbənin fonunda yeni Zəfərimizin qürurunu yaşamağı nəsib etdi bizə. Həmin gün qürur və sevincimizin həddi-hüdudu yox idi. Bir tərəfdən həmin torpaqların da anası Azərbaycana qovuşmasını, digər tərəfdən isə dövlətimizin başçısının və milli ordumuzun xalqa yaşatdığı bu hissləri bayram etdik. Torpaqları satanlar kimi, alanları da görməyimiz isə nifrətlə məhəbbət arasındakı 30 illik yolda olub-keçənləri xatırlatdıqca, bu günü bizə bəxş edənlərə sevgimizi artırır, eyni zamanda şəhid və qazilərimizin Vətən uğrunda göstərdikləri şücaətdən, bir də düşmənin xislətindən söhbət açırdı.Tədbirdə dövlətimizin başçısının nitqindəki bu nüanslar isə sevinən, lakin illərlə vurulan zərbələrdən asanlıqla sağalmayan ürəyimizdən tikanı çəkirdi: Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.Qürur duyuruq! Zəfərimizlə, müzəffər sərkərdəmizlə, şəhid-qazilərimizlə, əsgər-zabitlərimizlə, vətənpərvər insanlarımızla. Bir də onunla ən çox qürur duyuruq ki, çoxəsrlik tariximizin səhifələrinə 270 ildən artıq bir zamandan sonra yeni bir qəhrəmanlıq salnaməsi yazıldı.



***Mətanət Məmmədova***

# Laçınlılar əzəli torpaqlarında




30 ilə yaxın işğal altında olan və 44 günlük Vətən müharibəsi zamanı azad olunan hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində "Bizim ölkəmiz üçün yeni dövr başlayır", deyərək artıq ölkəmizdə yeni dövrün başlandığını bildirmişdi: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı tələbkəsiz və xoşbəxt həyat gözləyir".

### "ÖZ DOĞMA TORPAĞINA QAYIDA BİLMƏMƏK ƏZABI DƏHŞƏTLİDİR"

Artıq əzəli sakinlər Laçınla, doğma yurdla görüşürlər. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız".

Laçın şəhərinə növbəti köç noyabrın 14-də baş tutdu. "Qobupark-3"də məktəbin qarşısından keçmiş məcburi köçkünlərdən olan laçınlıların bir qismi əzəli torpaqlarına yol aldılar. Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir. Layihəyə əsasən, yolun 6,7 kilometrliyində "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəricilərdir.



Köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Məlumdur ki, 1 dekabr 2020-ci il tarixində Laçın işğaldan azad olundu. Bildiyimiz kimi, Ermənistan tərəfindən Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. Xatırladaq ki, Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, camaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə zəngin olan bir diyardır.

### İNSANLARIN RAHAT VƏ FİRAVAN YAŞAMASINA TƏMİNAT

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Füzuli də abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar.








Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, eləcə də Laçına köç yola salındı. İnsanların doğma yerlərdən səsləri eşdilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Bildiyimiz kimi, Ağdamda Xıdırlı kəndinin dövlət başçısı tərəfindən ötən il təməli qoyulmuşdur. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Bütün bunlarla yanaşı, Ağdam şəhərində 2-ci yaşayış məhəlləsi salınır. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılıb. Ağdam şəhərində 3-cü yaşayış məhəlləsi də salınır.

### QARĞABAZAR KƏNDİNİN TƏMƏLİ QOYULDU

Bu günlərdə isə, noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoyub. Füzuli Beynəlxalq Hava Limanından 10 kilometr məsafədə, rayonun cənub-qərbində yerləşən kəndin inzibati ərazisinə Yal-Pirəhmədi və Sərdarlı kəndləri də daxildir. Qarğabazar kəndinin layihələndirilən ümumi ərazisi 152,6 hektardır. Kəndə 2 min nəfərin köçürülməsi planlaşdırılır. Burada ümumilikdə 527 fərdi ev tikiləcək. Kəndin inşasının birinci mərhələsində 181 fərdi evin tikilməsi üçün 35,5 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kəndə 181 ailənin - 629 nəfərin köçürülməsi planlaşdırılır. Kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, mədəniyyət evinin, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 384 şagird yerlik orta məktəbin, 128 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, bazar kompleksinin, kitabxananın, ticarət obyektinin, qonaq evinin, məscidin və digər zəruri obyektlərin tikilməsi planlaşdırılıb. Kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub. Prezident İlham Əliyev Qarğabazar kəndinin təməlini qoydu.

Kənddə tarixi memarlıq abidələri – Şah Abbas karvansarası və Şah Abbas məscidi də bərpa olunacaq. Qarğabazar kəndi Şəki-Qarabağ-Hindistan ipək ticarəti yolu üzərində yerləşdiyindən bu yoldan istifadə edən tacirlər uzun yolun yorğunluğunu çıxarmaq üçün Qarğabazar karvansarasında gecələyirdilər. Qarabağın ən qədim məscidlərindən olan, 1684-cü ildə inşa edilən Şah Abbas məscidi el arasında Hacı Qiyasəddin məscidi kimi də tanınır.

Bütün bunlar işğaldan azad olunan ərazilərin müasir infrastrukturla təmini və yenidən qurulması işıqlı gələcəyə hesablanıb. Qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Adı şirin, özü zəhərdən acı






***Qeyri-normal qidalanma, hərəkətsizlik fonunda yaranan şəkərli diabet xəstəliyinin arealı getdikcə böyüyür. Statistik məlumatalara görə, dünyada hər 6 saniyədə 1 nəfər şəkərli diabetdən qaynaqlanan xəstəlik və sağlamlıq problemləri səbəbindən ölür. Araşdırmalar göstərir ki, 2035-ci ildə diabetdən əziyyət çəkən insanların sayı bütün dünyada 600 milyona yaxınlaşacaq. Dünyada, həmçinin gizli diabet kimi tanınan 316 milyon nəfər pre-diabet xəstəsi var.***




### Yenidoğulmuşdan yaşlıya qədər

Tibb elminin şəkərli diabet kimi tanıdığı şəkər xəstəliyi, bədənin, qidanı enerjiyə çevirməsini ləngidən və ya yox edən uzunmüddətli, xroniki bir xəstəlikdir. Bu xəstəlik zamanı, mədəaltı vəzi kifayət qədər insulin istehsal edə bilmir və qanda qlükoza yığılması nəticəsində qan şəkərinin artması müşahidə olunur. Orqanizmin ehtiyac duyduğu enerji, əsas qida maddələri olan zülallar, yağlar və karbohidratlar tərəfindən təmin edilir. Bu qidaların ən mühüm hissəsi "qlükoza", yəni sadə şəkərdir. Qan, orqanizmin enerji ehtiyacı üçün lazım olan qlükozanı bədənin bütün hüceyrələrinə daşımalıdır.

Qlükoza, orqanizm, xüsusilə beyin üçün ən vacib enerji mənbəyidir. Hüceyrələr ehtiyac duyduqları qlükozanı mədəaltı vəzidən ifraz olunan insulin hormonu vasitəsi ilə alır. Bədəndə insulin hormonu istehsal oluna bilmirsə, qlükoza enerji olaraq istifadə edilə bilməz və qan şəkəri yüksəlir. Şəkərli diabet xəstələrinin qanında şəkərin miqdarı artır və böyrəklər vasitəsilə xaric olur. Mədəaltı vəzinin kifayət qədər insulin hormonu istehsal etməməsi və ya onun istehsal etdiyi insulin hormonunu orqanizmin istifadə edilə bilməməsi nəticəsində yaranan diabet yeni doğulmuş körpədə və ya 80 yaşlı qocada da rast gəlinə bilər.

Kənddən şəhərə axının başlanması ilə yayılan bu xəstəliyin ən birinci dostu oturaq həyat tərzidir. Bütün günü hərəkətsiz qalan və qeyri-sağlam qidalanan insanlar üçün bu xəstəlik sürpriz olmur. Əvvəllər daha çox orta yaşlı və yaşlı insanlarda rast gəlinən xəstəliyin yaşı yenidoğulmuşlaradək enib. İndi anadangəlmə şəkər xəstəsi olan körpələr var.

### İnsulin çatışmazlığı nədən yaranır?

Diabet xəstəliyinin ən çox yayılmış növləri 1-ci və 2-ci tip diabetlərdir. 1-ci tip diabet insulin hormonunun mütləq çatışmazlığı ilə yaranır. 1-ci tip şəkərli diabet insulin istehsalını öhdəsinə götürən mədəaltı vəzinin beta hüceyrələrinin məhv edilməsi, virus, dərman qəbulu, peyvənd, fiziki və ya psixi stress və s. səbəbiylə immunitet sisteminin fəaliyyətinin pozulması nəticəsində inkişaf edir. Bu pozulma 80%-dən çox olduqda şəkərli diabet əlamətləri görünməyə başlayır. Bu xəstələr ömürlük insulin dəstəyi almalıdırlar.

2-ci tip şəkərli diabetin ilkin mərhələlərində mədəaltı vəzi kifayət qədər miqdarda insulin ifraz etsə də, ifraz olunan insulin hüceyrələr tərəfindən istifadə oluna bilmir. Xəstəliyin sonrakı mərhələlərində mədəaltı vəzidən insulin ifrazı qeyri-kafi olur. 2-ci tip diabetdə uzun illər heç bir klinik əlamət müşahidə oluna bilməz.

İnfeksiya, cərrahiyyə, hamiləlik, stress və ya artıq çəki artımı diabeti klinik olaraq aşkar edə bilər. 2-ci tip diabet adətən 40 yaşdan yuxarı insanlarda olur. Ailə üzvlərində şəkərli diabet xəstəsi olan insanlarda, artıq çəkili insanlarda və çəkisi 4 kq-dan çox uşaq dünyaya gətirən qadınlarda bu tip diabet riski daha yüksəkdir.



Ağız quruluğu və buna görə də daha tez-tez hiss edilən susuzluq hissi, gecələr daha tez-tez sidiyə getmə, yorğunluq, plansız kilo itkisi, yaraların daha yavaş sağalması, artan aclıq hissi və bulanıq görmə diabetin ümumi əlamətləridir. Əllərdə və ayaqlarda uyuşma, dəridə quruluq, genital bölgədə qaşınma, əsəb, tez-tez dəyişən əhval-ruhiyyə də şəkərli diabetin göstəricisi ola bilər.

### Uşaqlarda diabetin əlamətləri hansılardır?

Qeyd etdiyimiz kimi, "diabetes mellitus" şəkər, yağ və zülal mübadiləsinin pozulması nəticəsində yaranan, insulin ifrazının və ya təsirinin çatışmazlığı nəticəsində inkişaf edən, qanda şəkərin artması ilə nəticələnən, ömür boyu davam edən xəstəlikdir. Uşaq diabetinin 97 faizi 1-ci tip diabetdir.

Diabet xəstəliyinin ana, ata və bacı-qardaşlarında daha çox olması, biri şəkər xəstəsi olan əkizlərdə bu ehtimalın yüzdə 50-yə yaxın olması iris xəstəlik olmasını sübut edir. Xəstəliyin yaranmasında virus infeksiyaları, qidalanma, toksinlər və stress kimi ətraf mühit faktorları da rol oynayır. İnfeksiyalar hüceyrələrə birbaşa zərər verərək və ya immunitet sistemini pozaraq beta hüceyrələrinin məhvinə başlayır. Parotit və məxmərək kimi epidemiyalar zamanı 1-ci tip diabetin tezliyində artımlar müşahidə edilib.

Körpələrə erkən aylarda inək südünün verilməsi də diabet səbəbi ola bilir. Araşdırmalara görə, ana südü əmən uşaqlara nisbətən inək südü ilə qidalanan uşaqlarda diabetin inkişafı daha sürətli gedir.

Maraqlıdır ki, diabet xəstələrinin 30-40 faizində insulinə qarşı anticisimlər aşkar edilir. Bu anticisimlər bədənin öz mədəaltı vəzi toxumasına qarşı bir növ müharibəyə başladığını göstərir. Yəni, orqanizm öz mədəaltı vəzi toxumasını yad toxuma kimi qəbul edir, parazit zənn edir və onu bədəndən çıxarmağa çalışır.

### Şəkərin acı etdiyi ömürlər

Bu ilin 6 ayı ərzində ölkə üzrə 53 Hemodializ Mərkəzində 3 896 xəstə hemodializ seansları və müvafiq dərman preparatları ilə təmin olunub. Şəkərli diabet, xroniki böyrək çatışmazlığı, hemofiliya xəstəliyi, dağınıq skleroz xəstəliyi üzrə dövlət proqramlarının icrası ilə əlaqəli fəaliyyət aparılır. Hazırda Azərbaycanda şəkərli diabet xəstəliyi registrində 284 656 xəstə qeydiyyatdadır. Onlar dövlət proqramı çərçivəsində müvafiq tibbi xidmətlə və mərkəzləşdirilmiş qaydada verilən dərman preparatları ilə təmin olunurlar. Bu ilin 6 ayında 4 839 yeni xəstə qeydiyyata alınıb.

Şəkərli diabet diaqnozu qoyulan xəstələr lazımi müalicə almadıqda, həyat şərtlərini dəyişmədikcə, qidalanma rejimini düzəltmədikcə bu xəstəliklə ömürləri 8 il qısalır. Diabetdən qorunmaq üçün ən vacib addım qan şəkərini nəzarət altında saxlamaqdır. Statistik rəqəmlər qorxulu olsa da, oturaq həyat tərzindən uzaqlaşmaq, habelə düzgün qidalanma vərdişləri ilə diabetin qarşısını almaq mümkündür.

***Lalə Mehralı***

***PS:** Noyabrın 14-ü bütün dünyada Şəkərli Diabet Günü kimi qeyd edilir. Adı şipşirin, özü zəhər kimi acı xəstəliyin qurbanı olmamaq üçün sağlam qidalanmaya, bol hərəkətə diqqət etmək mütləqdir.*



# "Hərbi parad Ermənistana və havadarlarına ciddi mesajdır"





Qalib Azərbaycanda Zəfər dolu günlər biri-birini əvəz edir. Oktyabrın 15-də Xankəndidə, Xocalıda, Ağdərədə, Əskəranda və Xocavənddə Azərbaycanın Dövlət Bayrağını ucaldan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də Xankəndi şəhərində dünyaya səs salan daha bir möhtəşəm tədbirdə-Vətən müharibəsində tarixi Zəfərimizin üçüncü ildönümünə həsr olunan hərbi paradda iştirak etdi. Bütün bu biri-birindən möhtəşəm, qürurverici bayram tədbirləri bir daha sübut edir ki, dövlətinin, xalqının gələcəyini düşünən cənab İlham Əliyev əvəzolunmaz Lider və tarixi şəxsiyyət kimi hər bir vədini reallığa çevirir, qalib Azərbaycanımızın imzasının imzalar arasında görünməsini, beynəlxalq arenada rolunun, dəyərinin yüksəldilməsini əsas hədəf kimi qarşıya qoyur. Bu, atrıq təsdiqini tapmış təkzibolunmaz faktdır ki, cənab İlham Əliyev sözü ilə əməli vəhdət təşkil edən qətiyyətli Prezidentdir.

Dövlət başçısı hərbi paraddakı çıxışında "Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq" fikirləri ilə ölkə rəhbəri kimi fəaliyyətinin əsas hədəfini açıqladı. Əgər bu gün artıq tarixi sahibinə qovuşmuş torpaqlarımızda Azərbaycanın üçrəngli Bayrağının qürurla dalğalanmasından bəhs ediriksə, unutmamalıyıq bu, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən müdrik siyasətinin, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı hər bir qəsdin qarşısını alan rəşadətli ordumuzun gücünün, qüdrətinin, xalqımızın birliyinin, həmrəyliyinin nəticəsidir. Müzəffər Ali Baş Komandan hərbi paraddakı çıxışında böyük qürurla qeyd etdi ki, Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan birdəfəlik qovdu. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Əfsanəvi Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti heç zaman unudulmayacaq qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edən Azərbaycan əsgər və zabiti misli görünməmiş qəhrəmanlıq nümunəsi göstərdi.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru, professor Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, üç il bundan öncə bəzi dünya güclərinin havadarlıq etdiyi yağı və hiyləgər düşmən üzərində qazanılan böyük Qələbə çoxəsrlik tariximizə yeni-yeni Zəfər səhifələrinin yazılmasını şərtləndirdi. Dövlət başçısı İlham Əliyev daim çıxışlarında bu çağırışı edir ki, əldə olunan uğurlarla kifayətlənməməli, irəli baxmalıyıq. Təbii ki, bu çağırış bütün sahələri əhatə edir. Əgər Azərbaycan 1993-2020-ci illərdə işğal altında olan torpaqlarının azad edilməsini qarşısına əsas hədəf kimi qoymuşdusa, son üç ilin reallıqları dövrün çağırışlarına uyğun olaraq yeni vəzifələrin yerinə yetirildiyini nümayiş etdirir. Bu gün Azərbaycanın ordu quruculuğu sahəsində atdığı ardıcıl və məqsədyönlü addımlar davamlılığı ilə dünyanın diqqət mərkəzindədir. Dövlət başçısı İlham Əliyevin Xankəndi paradında qeyd etdiyi kimi, Ermənistanda revanşist qüvvələrin baş qaldıracağını, işğalçının arxasında dayanan və erməniləri bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələrin onlara yenə də təxribatçı siqnallar verəcəklərini bilirdik. Keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan-Ermənistan sərhədində vəziyyət ölkəmizin nəzarətindədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün şərait yaratdı. Bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə bir mesaj oldu ki, kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz. İlk növbədə, Ermənistan silahlı qüvvələri Qarabağdan çıxmalı idi. Amma reallıqda bunun əksini gördük. Ermənistanın bu kimi təxribatçı addımları Azərbaycan Silahlı Qüvvələrinin bir günlük lokal xarakterli antiterror tədbirlərini həyata keçirməsinə səbəb oldu. Sonsuz xoşbəxtlikdir ki, artıq separatçı-terrorçulardan tamamilə təmizlənmiş ərazilərimizdə Azərbaycan Bayrağının ucaldılmasının qürurunu yaşayırıq. Noyabrın 8-də Xankəndidə Zəfər Günü münasibətilə hərbi paradın keçirilməsinin xoşbəxtliyi hər bir azərbaycanlının dilində yenilməz Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və rəşadətli Azərbaycan Ordusuna ifadə edilən minnətdarlıq hissində özünün aydın ifadəsini tapır.

YAP Xətai rayon təşkilatının sədri dövlət başçısı İlham Əliyevin hərbi paraddakı çıxışında səsləndirdiyi "Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada - Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi. O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada - Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır" fikirlərinə yönəldərək bildirib ki, dövlətimizin hər bir addımının arxasında Azərbaycanın bugününə və gələcəyinə xidmət edən məqsəd dayanır. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olmaqla yanaşı, həm də bu sənədə uyğun olaraq Kəlbəcərin, Ağdamın və Laçının bir güllə belə atılmadan geri qaytarılmasını şərtləndirdi. Təbii ki, Azərbaycan Ordusu o zaman bütün ərazilərimizi azad etmək üçün kifayət qədər böyük gücə, potensiala malik idi. 44 gündə 30 ilin işğalına son qoyulması bunun bariz nümunəsidir. Hər gün irəli gedən, döyüş ruhu, torpaq, Vətən sevgisi ilə dünyanı heyran edən Azərbaycan əsgəri və zabiti üzərinə düşən missiyanı sonadək şərəflə yerinə yetimək iqtidarında idi. Lakin unutmamalıyıq ki, o zaman müharibənin davam etdirilməsi böyük insan itkisi, şəhidlərimizin sayının daha da artması ilə nəticələnərdi. Bu məqamı dövlət başçısı İlham Əliyev də xüsusi qeyd etmişdir ki, Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.

Vüqar Rəhimzadə dövlət başçısının çıxışlarında yer alan məqamlardan birinə-Azərbaycanın müstəqil siyasətinə də diqqəti yönəldib. Bildirib ki, dövlətimizin xarici siyasətinin əsas prinsiplərindən biri heç bir ölkənin daxili işinə müdaxilə etməmək və eyni zamanda öz daxili işinə müdaxiləyə imkan verməməkdir. Bu fikrin doğruluğuna əmin olmaq üçün 30 il davam edən işğal, 44 günlük İkinci Qarabağ müharibəsi, eyni zamanda, postmünaqişə dövründə Azərbaycana göstərilən təzyiqlər fonunda dövlətimizin atdığı addımlara diqqət yetirmək kifayətdir. Həmin dövrdə müharibənin dayandırılması ilə bağlı ölkəmizə nə qədər təzyiqlər göstərildi. Amma qətiyyətli Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün və təzyiqlərə mərdliklə sinə gərdi, müharibənin hansı şərtlər daxilində dayandırıla biləcəyini bəyan etdi. Azərbaycan Ordusu sona qədər döyüşləri davam etdirdi və Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi. Dövlət başçısı İlham Əliyevin postmünaqişə dövründə də bütün çıxışlarının mahiyyətində Ermənistana və havadarlarına ciddi mesajları ilə diqqətdə olur. Prezident İlham Əliyev Xankəndidən Ermənistana və onun havadarlarına növbəti mesajını ünvanladı: "Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik."

YAP Xətai rayon təşkilatının sədri belə bir ümumiləşdirməni aparıb ki, hər günümüzün tariximizə uğur, zəfər səhifəsi kimi yazılması, verilən vədlərin reallıqda öz əksini tapması gələcəyə doğru daha böyük inamla addımlamağa stimul verir. Qarabağlı və Şərqi Zəngəzurlu bütöv Azərbaycanın qarşısında daha geniş üfiqlər açılır.

## "Azərbaycan-Qazaxıstan əlaqələri öz dövrünün ən parlaq səhifəsini yaşayır"



"Bu gün Azərbaycan-Qazaxıstan əlaqələri öz dövrünün ən parlaq səhifəsini yaşayır. Çünki bu əlaqələr yalnız ikitərəfli deyil, eyni zamanda Türk Dövlətləri Birliyi səviyyəsində baxılmalıdır. Qazaxıstan mərkəzi Asiyanın aparıcı dövlətidir, bizi tarixi kökləri bağlayır. Lakin 70 illik Sovet İttifaqı dövrünün ortaq tarixi hər nə qədər bizi birləşdirsə də, öz kökümüzdən ayırmışdı". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan-Amerika Gənclər Birliyinin sədri Vüqar Əhmədov deyib.

Onun sözlərinə görə, indi tamam fərqli reallıq yaranıb və bu reallığın yaranmasında Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna xidmətlərini qeyd etmək lazımdır: "Hər nə qədər bizim keçmiş tariximiz və bağlarımız olsa da, yenə də bu ölkədə əlaqələrimizin dərinləşməsi üçün dövlətimiz tərəfindən davamlı iş aparıldı. Hətta bu gün də bu iş davam edir və Prezident Əliyevin Türk Dövlətləri toplantısı çərçivəsində bu ölkəyə səfəri və çıxışı bunu deməyə əsas verir. Cənab Prezidentin Mərkəzi Asiyanın aparıcı ölkəsi olan bu dövlətlə mənəvi bağların gücləndirilməsini Türk Birliyi çərçivəsində apardısa, bunun iqtisadi əsasları da tarixi İpək yolu və Qazaxıstanın karbohidrogen yataqlarının məhz Azərbaycan vasitəsi ilə Avropa bazarına yol açması oldu. Beləliklə bu əlaqələr nəinki iki dövlət, ümumilikdə bütöv region, Avrasiya məkanı və hətta deyərdim qlobal miqyasda əhəmiyyət daşıyır".

"Onu da unutmaq lazım deyil ki, Qazaxıstan həm də dünya siyasətində çəkisi olan dövlətlərdəndir və ölkələrimiz arasında daimi tərəfdaşlıq bizim dünyadakı mövqelərimizi daha da gücləndirir. Hər iki dövlət həm geosiyasi və geoiqtisadi, həm də xalqların mədəni yaxınlaşması baxımından bu gün bir-birinə çox gərəklidir. Bu strategiyanın formalaşmasında bu daha cənab Prezidentin düşünülmüş siyasətini vurğulamaq lazımdır. Hesab edirəm ki, dövlətlərimiz hələ uzun illər bu əlaqələrdən faydalanacaq",- deyə o əlavə edib.

***Ləman Sərraf***

*Ötən əsrin, iyirminci əsrin 90-cı illərinin əvvəllərində Qarabağda baş verən hadisələrə görə, daha dəqiq desək, yüzlərlə azərbaycanlının soyqırıma, işgəncələrə məruz qoyulmasına, əsir götürülməsinə, bir milyondan çox vətəndaşımızın silahlı təhdid qarşısında qalaraq məcburi köçkünə çevrilməsinə, az qala əsrin üçdəbirinə yaxın müddət ərzində torpaqlarımızın işğal altında saxlanmasına görə lovğalananlara Xankəndidə keçirilən Qələbə Paradı ilə hədləri bildirildi və yaratdıqları qondarma mif də darmadağın edildi. Separatçılar üçün də, revanşizm barədə uydurma fikirlər səsləndirənlər üçün də, xalqımızın, dövlətimizin əleyhinə olanlar üçün də tərs şillə effekti verən bu parad təkcə onlar deyil, bir çoxları, hətta havadarları üçün də bir dərs oldu.*

# Dövlətimizin, xalqımızın qələbəsini gözü götürməyən XAİNLƏR




Qələbə Paradının bu dəfə Xankəndidə keçirilməsi Azərbaycan xalqının ən böyük arzusunun reallaşması, ən qürurverici hadisəsi, erməni separatçılarının, millətçi ermənilərin isə ən böyük rəzaləti, rüsvayçılığı kimi bütün dünya ictimaiyyəti tərəfindən izlənildi, halbuki bunu danmaq, görməməzliyə vurmaq istəyənlər də öz xislətlərini ortaya qoymuş oldular.

Xankəndidə Qələbə Paradının keçirilməsi ermənipərəstlərə də, erməni dəyirmanına su tökənlərə də şapalaq kimi dəydi. Çünki bu dəfə paradın məhz Xankəndidə keçirilməsi Azərbaycanın tam və mükəmməl qələbəsinin təsdiqi deməkdir, hansıki bunu həzm edə bilməyənlər üçün bundan böyük zərbə ola bilməzdi. Sözügedən parad özünü azərbaycanlı hesab edən, Azərbaycan xalqının nümayəndəsi olan hər kəsə qürurverici, sevindirici olduğu halda, ermənilərə, ermənipərəstlərə və erməni dəyirmanına su tökənlərə də bir dərd oldu. Bunu açıq-aşkar şəkildə biruzə verənlər arasında xalqımıza düşmən kəsilən və erməni lobbisinin vəsaitləri hesabına xaricdə yaşayan Sevinc Osmanqızının, eləcə də içimizdə olan "sapı özümüzdən olan baltalar" timsalında xainlərin olması təəssüf doğurur və onlara qarşı ikrah hissini dəfələrlə artırır. Xankəndidən canlı yayım olmadığı bəhanəsi ilə Qələbə Paradının həmin şəhərdə keçirilmədiyini həyasızcasına iddia edən xainin gözü kör deyildisə, oradan yayımlanan kadrları görməli idi. Görməyibsə, deməli kor imiş və belə bir korun gözü ilə baxanlar da heç şübhəsiz ki, onun kimidirlər.

Düz üç il bundan əvvəl Azərbaycan, 44 günlük savaşın məntiqi nəticəsi olaraq, Ermənistanı, erməni separatçılarını diz çökdürdü və erməni baş nazir Nikol Paşinyan katipulyasiya sənədinə imza atmağa məcbur oldu. Onillər boyu qurulan, yaradılan və barəsində ermənilərin böyük mif yaratdıqları Ohanyan səddi Azərbaycan Ordusunun qarşısını kəsə bilmədi. Alınmaz qala hesab olunan və 2020-ci ilin 8 noyabr tarixinə qədər ermənilərin işğalı altında olan Şuşa şəhərimiz rəşadətli əsgərlərimiz tərəfindən işğaldan azad edildi. Bütün bu qələbələrimiz fonunda həmin o mifləşdirilmiş guya döyüşkən olan erməni əsgərləri öz silah-sursatını, hərbi maşınlarını, döyüş texnikalarını belə qoyub qaçaraq aradan çıxmaqla təsdiq etdilər ki, ordumuzun qarşısında davam gətirə bilmədilər və məğlub oldular. Amma onların məğlubiyyətinə Ermənistan cəmiyyətində don geyindirənlər də tapıldı, məğlubiyyət səbəbini başqalarında axtaranlar da, günahı Rusiyanın üzərinə atmaqla özlərini sığortalamağa çalışanlar da. Ən çox diqqəti cəlb edən və əsəbləri tarıma çəkən isə, Şuşanın azad edilməsindən və bununla da müharibənin dayandırılmasından sonra Xankəndi, Xocalı və ermənilərin məskunlaşdıqları digər ərazilər barədə spekulyasiyalar idi. Beləki, ermənilərin bəziləri sosial şəbəkə hesablarında virtual olaraq, bəziləri də açıq şəkildə qələbəmizi kiçiltmək üçün qalan əraziləri, ələlxüsus da Xankəndini göstərərək, qələbəmizə kölgə salmaq üçün fikir formalaşdırmağa çalışırdılar. Məsələ burasındadır ki, Sevinc Osmanqızı xislətli xainlər də, məsələn Əli Kərimli, Tofiq Yaqublu, Fuad Qəhrəmanlı kimiləri də belə spekulyasiyalara qoşulur və qarşılarına atılan yal müqabilində ermənidən betər erməni olduqlarını göstərməyə çalışırdılar. Hətta bu təsirə düşənlər də oldu və bir çoxları öz sosial şəbəkə hesablarında, yumşaq şəkildə desək, səbirsizlik nümayiş etdirir, əldə etdiyimiz Zəfərə lazımi qiymət verə bilmirdilər. Bütün ərazilərin tam olaraq işğaldan azad edilməsinin düz bir addımlığında olduğumuz anda müharibənin dayandırılması bir çoxlarında az qala depressiyaya səbəb ola bilən hislər yaratmışdı. Lakin biz, Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin özünün dediyi kimi, onun nəyi nə zaman və necə edəcəyini hamıdan yaxşı bildiyinə əmin idik. Əmin idi ki, bizim bayrağımız bir gün Xankəndidə də dalğalanacaq və həmin şəhərdə Qələbə Paradını izlədiyimiz zaman buna görə yanılmadığımıza bir daha əmin olduq. Amma düşmənlər və xainlər hələ də görməməzlikdən gəlirlər və xislətlərini göstərməkdən nə çəkinmirlər, nə də utanmırlar.

Utanmazlar məhz Xankəndidəki Qələbə Paradı keçirildiyi zaman da xəcalət hissini yaxına buraxmadılar. Cəmi bircə sutkadan da bir neçə dəqiqə az olan zaman fasiləsində keçirilən anti-terror tədbirləri ilə düşmən təslim edildi. Ağ bayraq qaldıran separatçı dəstənin qalıqları və erməni silahlılarının tör-töküntüləri silah-sursatı da təhvil verib təslim oldularsa və artıq Qarabaq iqtisadi rayonunun bütün ərazilərində Azərbaycan bayrağı dalğalanırsa, deməli, buna ağız büzənlərin elə öz ağızları əyri imiş. Bizim kimlərinsə "ağzını düzəltmək" kimi bir fikrimiz yoxdur, amma əyriliyini göstərəcək, sübut edəcək saysız-hesabsız faktlarımız var. Həmin o əyri ağızın kimə məxsus olmasına baxmayaraq, xainliyini, xəyanətkar olduğunu sübut edən ən başlıca əlamət olaraq qəbul edilməlidir. Çünki öz dövlətinin, dövlətçiliyinin uğurlarını, öz xalqının milli mənafeyini nəzərə almayan elə xain deyilənin özüdür ki, var.

"Belə çıxır ki, bu ölkənin vətəndaşı olmaqdansa, bir məmurun keçisi olmaq daha üstündür", deyə ölkə vətəndaşını təhqir etməkdən çəkinməyən Azərbaycan Xalq Cəbhəsi Partiyasının keçmiş sədr müavini olmuş, həmin partiyanın hazırda rəyasət heyətinin üzvü olan Fuad Qəhrəmanlı kimi birisi nəinki qalib xalqın vətəndaşı olaraq fəxr edən insanlardan deyil, hətta qələbəmizə görə qürur hissi keçirən, sevinən layiqli vətəndaşlarımızı da gözü götürməyənlərdəndir. Çünki özünü müxalifətçi kimi göstərmək istəyən bu adam ölkəmizin bu boyda qələbəsini də, xalqımızın bu qələbə ilə bağlı qürur hissini də görə bilmir, yaxud, görmək istəmir. Azərbaycanın qələbəsini həzm edə bilməyən erməni əsilli insanları, onların bizim qələbəmizi kiçiltməyə çalışmasını hardasa başa düşmək olur, çünki onlar bizi özlərinə düşmən hesab edirlər. Amma içimizdə olan, sapı özümüzdən olan baltaların ölkəmizin qələbəsinə ağız büzməsi, dövlətimizin gördüyü işləri kiçik göstərməyə çalışması, düşmən dəyirmanına su tökməsi heç cür başa düşülən deyil. Əslində, heç başa düşülməməlidir də, çünki bunun adı xəyanətdir.

Özünü müxalifətçi kimi göstərməyə çalışanlar özləri görmürlərmi ki, dövlətimiz işğaldan azad edilən ərazilərimizdə ən qısa zaman fasiləsində nə qədər işlər görüb? Bu qədər infrastruktur layihələrinin reallaşdığını görməmək üçün kör olmaq belə kifayət etməz. Axı qısa müddət ərzində hansı ölkə bu qədər layihələri gerçəkləşdirə bilib? Bəlkə Qəhrəmanlının və onun partiyadaşlarının partiyası öz hakimiyyəti dövründə Azərbaycanda bircə dənə iş görə bilmişdi? Həmin dövrün canlı şahidi kimi bilirəm ki, xaos, qarşıdurma və qarmaqarışıqlıq törətməkdən başqa əllərindən bir şey gəlməmişdi, baxmayaraq ki, hakimiyyətə gəlməmişdən öncə milli gəlir hesabına Azərbaycan ərazisini bir ilin içərisində 8 sm qalınlığında qızılla örtəcəklərini vəd etmişdilər. Amma qızıl bir yana qalsın, vətəndaşlarımızı çörəklə belə təmin edə bilmirdilər. İndi nəyə və niyə ağız büzürlər? İşğaldan azad edilən ərazilərdə işsizlikdən guya şikayətlənən bir müxalifətçi bilmirmi ki, görülən işlər, yaradılan şərait, işgüzarlıq mühiti üçün əvəzsizdir? "Mal-qara, qoyun-quzu saxlamaları üçün şəxsi təsərrüfat yaradaydılar", deyə ağız büzənlər hələ Qarabağın işğaldan azad edilməsindən də öncə Azərbaycan vətəndaşlarına məşğulluq səviyyəsinin artırılması, rifah halının yaxşılaşdırılması məqsədi ilə təsərrüfat yaratmaları üçün dövlət tərəfindən mal-qara, qoyun-quzu verildiyindən xəbərsizdilər ki, indi bunu deyirlər və bunu dövlətimiz üçün əlçatmaz hesab edirlər? Yəni, bu qədər böyük layihələrin gerçəkləşməsi fonunda bunlar mal-qara, qoyun-quzu verilməsini dövlətimiz üçün ağırlıq hesab edirlər, yoxsa özlərini axmaq yerinə qoyublar?

Bəlkə də özünün müxalifətçi olduğunu göstərməyə çalışan Fuad Qəhrəmanlı kimi bir çoxları işğaldan azad olunan ərazilərdə görülən işlərin həcmini təsəvvür etməyə, dərk etməyə bilər. Amma ən azından görülən işlərə sərf olunan on milyardlarla maliyyə vəsaitlərini mal-qara, qoyun-quzu ilə müqaisə edəcək qədər dərrakəsiz olacağını düşünmək belə olmur. Dəfələrlə, "özünün müxalifətçi olduğunu göstərməyə çalışan", ifadəsi tərəfimdən təsadüfən işlədilmir və diqqətə çatdırmaq istəyirəm ki, bəziləri alınan qrant müqabilində, daha dəqiq desək, Azərbaycan əleyhinə olan qüvvələrin ayırdıqları vəsaitlərdən ələ keçirmək, ən azından pay ummaq üçün hər nə gəldi danışıb özlərini gözə soxmaq istəyirlər. Belə "pay" umanlar utanmadan hələ bir öz ölkəsi üçün çalışan, dövlətinə xidmət edənləri keçi adlandırırlar. Sual oluna bilər ki, ay Fuad Qəhrəmanlı, bəs özgəsinin, özü də xalqına, dövlətinə düşmən olanların verdiyi yal müqabilində səsini çıxaranları biz necə adlandıraq? "Hörmətli keçiləri bəsləməsən, qulluq etməsən onlar öz sahibinə fayda verməzlər", deyə yazan Fuad Qəhrəmanlıdan onu da soruşmaq yerinə düşərdi ki, görəsən, o bunu, yəni bəslənilmədiyi, qulluq olunmadığı halda onların öz sahibinə fayda verməyəcəklərini hardan bilir, şəxsi təcrübəsindənmi? Hər halda yal verilmədiyində adı haqqında düşündüyümüzün faydasız olması təcrübi olaraq özünə bəlli imiş və onun kimilərinin "faydalı" olmaq cəhdləri də dövlətimiz, ölkəmiz əleyhinə əsassız şəkildə danışmasında, mövqeyində özünü göstərir.

Hələ də bir çoxları başa düşə bilmirlər, yaxud başa düşmək istəmirlər ki, müxalifətçi olmaq hakimiyyətə müxalifətdə olmaq deməkdir. Müxalifətçi dövlətə, xalqa, bizim milli maraqlarımıza qənim kəsilənə deyilmir. Öz ölkəsinə, öz xalqına qənim kəsilənin başqa adı var və buna lap elə ilk gündən xain deyilir. Xalqının, dövlətinin milli maraqlarına zidd mövqe tutmağın başqa nə adı ola bilər? Bu boyda qələbənin əleyhinə getmək, bunu danmaq müxalifətçilik deyil, bunun adını yal verənlərindən belə soruşsalar onlar da deyərlər. Deyərlər ki, bu xəyanətdir və hər halda qarşılarına qoyduqları yalın da məhz xəyanət müqabilində olduğu xatırladılar. Hətta soruşula da bilərlər ki, düz 3 il bundan öncə Qəhrəmanlının özünə başbilən saydığı Əli Kərimli də, Tofiq Yaqublu da Xankəndini göstərərək, qələbənin tam olmadığını irad olaraq bildirirdilərsə, indi bəs dediklərinin mənası nədir? Axı gördülər ki, Xankəndidə bayrağımız da dalğalandı, Qələbə Paradımız da keçirildi və bunun fonunda onların danışdıqlarının nə adı var? Kiminsə dəyirmanına, özü də düşmən dəyirmanına su tökməyin adı xəyanətdən başqa nə ola bilər axı?

Separatçı rejimin özünə paytaxt elan etdiyi şəhərdə, Xankəndidə parad, özü də Qələbə Paradı keçirməyin nə demək olduğunu guya Kərimlilər, Yaqubular, Qəhrənanlılar dərk etmirlər? Əgər dərk etmirlərsə, onda bu dərrakəsizliklə müxalifətçilik edərək bu xalqa nə vermək iddiasındadırlar? Yox, əgər dərk edirlərsə, onda dedikləri nə üçündür, nəyə görədir? Nəzərə alsaq ki, bu boyda qələbə, bu boyda uğur görülməyə, dərk edilməyə bilməz, deməli, əminik ki, Qəhrəmanlı, Yaqublu, Kərimli kimi müxalifətçilərin qələbəmizi görməməsi, dərk etməməsi mümkün deyil. Deməli, dərk edərək uğurumuzu danırlar və təbii ki, bu da, əldə etmək istədikləri maliyyə vəsaitinə görədir. Bu maliyyə vəsaitlərini ayıranların da kimlər olduğu cəmiyyətimiz üçün heç də sirr deyil. Sirr deyil ki, erməni lobbisinin, erməni diasporunun güclü olduğu bir çox Qərb ölkələri Azərbaycan əleyhinə hər şeyə əl atmaqda maraqlıdır. Məhz ölkəmiz əleyhinə göstərilən fəaliyyət müqabilində nə qədər vəsaitlər sərf olunduğu da bəllidir. Hazırda ermənipərəst mövqedə olan Qərb qüvvələrinin, yəni dolayısı ilə elə ermənilərin özlərinin vəsaitləri, pulu müqabilində xalqımızın, dövlətimizin qələbəsini kiçiltmək cəhdləri, milli maraqlarımıza əks getmək xəyanətdən başqa bir şey deyil və heç də müxalifətçilik sayıla bilməz. Onlar qələbəmizi gözü götürməyən xainlər olaraq hər zaman yadda qalacaqlar, çünki xaindirlər...

***İnam Hacıyev***

# Ermənistan yenidən özünə quyu qazır

## Fransa ilə Hindistanın məqsədi nədir?






***Artıq məlumdur ki, Ermənistan və Hindistan ZADS antidron sisteminin alınması üçün müqavilə bağlayıb və həmin müqavilənin məbləği 41,5 milyon dollar dəyərində qiymətləndirilir.***

Lakin məsələ həm də ondan ibarətdir ki, "Zen Technologies" nəinki sistemləri Ermənistana ötürəcək, həm də operatorlara onlarla işləməyi öyrədəcək. Onu da qeyd edək ki, hazırda sistemdən istifadə imkanları Hindistanın quru qoşunları tərəfindən öyrənilir.

### İstər Fransanın, istərsə də Hindistanın İrəvanı silahlandırması ondan xəbər verir ki...

Digər tərəfdən, Ermənistan bundan öncə də Fransadan yaxınmənzilli MİSTRAL "Atlas-RC" Hava Hücumundan Müdafiə (HHM) sistemi almışdı. Bu günlərdə isə növbəti hərbi texnika Ermənistana göndərilib. İstər Fransanın, istərsə də Hindistanın İrəvanı silahlandırması ondan xəbər verir ki, Ermənistan revanşist hərəkətlərinə nəinki son qoymur, bu ölkə Azərbaycana qarşı müharibəyə hazırlaşır. O cümlədən, fakt isə budur ki, Ermənistanın sürətli şəkildə silahlanır və bu hal regionda yaranmaq sabitliyə deyil, yeni təlatümlərə xidmət edir. Bu məsələdə Fransanın və Hindistanın da paylarının olması göz önündədir.



### Ermənistan indi də Rusiyaya meydan oxuyur?

Hərbi ekspertlərə görə, Ermənistanın aldığı son silah və qurğular həm də onu deməyə əsas verir ki, rəsmi İrəvan hava məkanını qorumağa çalışır. Məsələ ondadır ki, 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan ordusu açıq-aşkar hava üstünlüyünə malik idi. Məhz bu baxımdan, Ermənistan bu üstünlüyü bərabərləşdirmək üçün var-gəl edir.

Son vaxtlar Ermənistanın həm də Rusiyaya qarşı qeyri-adekvat siyasəti belə qənaətə gəlməyə zəmin yaradır ki, İrəvan Moskvanın ona qarşı mümkün hücumundan panik dövrünü yaşayır. Belə ki, Paşinyan açıq şəkildə Rusiya ordusunun Ermənistanı tərk etməsini tələb edir. Hətta o, bu yaxınlarda deyib ki, Rusiya ordusu artıq Ermənistan sərhədlərini qorumaq gücündə deyil. Bu baxımdan, mümkündür ki, silahlanmalar həm də Rusiyaya qarşıdır.

### Ermənistan bölgədə destruktiv fəaliyyətə xidmət edir

Lakin Ermənistan-Rusiya münasibətləri onların öz aralarında həll olunmalıdır və əsas diqqət Ermənistanın Azərbaycana qarşı revanşçı hisslərinin yenidən baş qaldırmasıdır. Əbəs deyil ki, Azərbaycanın XİN rəsmisi Ayxan Hacızadə baş verənlərlə bağlı bəyan edib ki, sözügedən hərbi texnikaların ötürülməsi Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hazırda da təcavüzkar siyasətdən və ritorikadan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək.

**Afət Tahirqızı**

# Sevinc Osmanqızı ağlına deyil, Kristofer Smitin təlimatına güvənir

Bu gün gözümüzün qarşısında möhtəşəm tarix yaşanır. Azərbaycan ikiyüzillik üzücü, nisgilli tarixini böyük zəfərlərlə, parlaq qələbələrlə əvəzləyib. 30 il erməni işğalı altında olmuş Qarabağımız və ətraf rayonlar tam şəkildə azad edildi. Xankəndidə, Xocalıda, Əsgəranda, Şuşada, Xocavənddə, Ağdərədə və digər ərazilərimizdə üçrəngli bayrağımız dalğalanır. Noyabrın 8-də Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xankəndi şəhərində zəfər paradı keçirildi. Dünyanın ən nüfuzlu mətbu orqanları, televiziyaları Xankəndi şəhərində keçirilən paraddan məqalələr yazdılar, verilişlər yayımladılar.

### Dağıdıcı müxalifət erməni lobbisinin istək və tələblərinin icraçısı rolunda çıxış etməyə üstünlük verirlər

Qürurverici hadisələr fonunda ərazilərimizdə geniş quruculuq, təmir və bərpa işləri aparılır. Hər gün hansısa kənd və qəsəbəyə keçmiş qaçqın və köçkünlərin qayıdışı barədə məlumatlar eşidirik. Sevinc doğuran xəbərlər yayıldıqca, dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq azərbaycanlıların üzü gülür, sevinir, fərəh hissi keçirir. Təəssüf ki, dərdə, qüssəyə mübtəla olanlar yalnız ermənilər və onları himayəyə götürmüş Makron, Kristofer Smit və digər əndərəbadi məxluqlardır. Azərbaycanın dağıdıcı müxalifəti də torpaqlarımızın azadlığına qovuşmasından heç də məmnun deyil. Çünki maddi və mənəvi dəstək aldıqları xarici maraqlı dairələrin tələbi və göstərişləri bundan ibarətdir. AXCP sədri Əli Kərimli, Milli Şuranın sədri Cəmil Həsənli, Şura üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli, ABŞ-da oturub Azərbaycan haqqında Koçaryan və Sarkisyan kimi hədyanlar səsləndirən Sevinc Osmanqızı və digərləri erməni lobbisinin istək və tələblərinin icraçısı rolunda çıxış etməyə üstünlük verirlər.

### S.Osmanqızı özünü ABŞ-ın qaranlıq dairələrindən asılı vəziyyətə salıb

Son günlər yuyulmamış çömçə kimi özünü erməni təəssübkeşi kimi ortaya atan Sevinc Osmanqızı Azərbaycanın "sivil" mübarizə apardığını bəyan edir, hər məqamda "Paşinyan demokratik yolla seçilən və xalqının maraqlarına dəyər və hörmət göstərən şəxsdir", - deyə bildirir. Özünün TV-sində bir qədər də dərinə gedərək noyabrın 8-də Xankəndi şəhərində keçirilən zəfər paradından özünün dayaz düşüncəsi ilə qüsur axtarmağa çalışır. Hətta utanıb-çəkinmədən belə bir paradın keçirilməsinə ehtiyac olmadığını bildirir. Niyə? Təbii ki, bu sualı S.Osmanqızına ünvanlamaq və cavab almaq mümkün deyil. Hətta sual ona çatsa belə, erməni maraqlarından çıxış etməyə kökləndiyindən əsaslı cavab verəcəyi də inandırıcı deyil.



Anlamaq istəməyəcək ki, 30 il ərzində erməni separatçıları Xanın kəndində və digər ərazilərimizdə meydan sulayıblar, bizim heysiyyətımıza, mənliyimizə toxunan hərəkətlər ediblər. Qukasyan, Saakyan, Artunyan Xankəndi şəhərində "parad" keçirib, bizim qürurumuzu alçaltmağa çalışıblar. Nəyə görə Sevinc Osmanqızı bu biabırçılıqdan danışmır? Nədən Makronun Ermənistana himayədarlıq etməsindən, müasir silahlarla təmin etməyə çalışmasından tənqidi fikirlər söyləmir? Əksinə, görünən ondan ibarətdir ki, müəyyən hallarda Ermənistanın separtçı addımlarına, təxribatçı hərəkətlərinə dolayısı ilə haqq qazandırır: "Tərəflər bir-birini ittiham etməkdədir. Ermənistan lideri Paşinyan hökumətin iclasında bildirib ki, Azərbaycan həm Ermənistanla sərhəddə, həm də Qarabağla təmas xəttində qoşunlar toplamaqdadır".

Məsələ aydındır: S.Osmanqızı ABŞ-ın qaranlıq dairələrindən, xüsusilə də, dövlət departamentindəki ermənipərəst şəxslərdən asılıdır. Onun üçün Azərbaycanın maraqları, xalqımızın mənafeyi arxa plandadır. Yeri gələndə öz ağlına deyil, ermənipərəst senator Kristofer Smitin təlimatına əsaslanır və məntiqsiz və əsassız fikirlər söyləyir. Bu isə onu deməyə əsas verir ki, S.Osmanqızı və onun kimilər insanlıqdan çıxıblar. Həm də Azərbaycanın çörəyini yeyib, suyunu içməklə yaşa dolduqlarını unudublar.

**İ.ƏLİYEV**

# Tarix unudulmur....



## Hər kəs etdiyi əməllərin cəzasını çəkəcək

Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır və tarixi faktları saxtalaşdırmaq olmaz. Xalqımız 2003-cü ildən bu günə kimi «müxalifət» deyilən qurumun hansı məqsədlərə və kimlərə qulluq etdiklərini, ən əsası isə satqınçılıqlarını bilirdi. Və bu gün son 20 ildə Azərbaycan Prezidentinin öz xalqına göstərdiyi qayğı və bütün dünyanı ağuşuna alan koronavirusa qarşı mübarizədə ancaq vətəndaşların sağlamlığının prioritet olduğunu deyərək dövlət başçımız «Biz birlikdə güclüyük!» şüarı ilə bütün uğurlu addımları atdığını xalqımız görür və öz Liderinə inanır. Və Prezidentimizin istər siyasi, istər iqtisadi, istərsə də xarici siyasət sahəsindəki bu uğurları isə müxalifəti təşvişə salıb.

Radikal fikirli, «görkəmli hüquqşünas», «millət fədaisi» satılıb-satan Əli Kərimli, öz savadsızlıqları və səviyyəsizlikləri ilə seçilən mətbuat orqanı ilə informasiya agentliklərini fərqləndirə bilməyən Qənimət Zahid və kökü, mənəviyyatı erməni xislətli, erməni təxribatına qahmar çıxan Sevinc Osmanqızı, satqınlığını hər cür formada nümayiş etdirən Arif Məmmədov, «Yurd» şefinin sədrinin əlaltısı olan Cəmil Həsənli, özünü «Milli Şura»nın «primadonnası» adlandıran Gültəkin Hacıbəyli, özünü «hüquq müdafiəçisi» hesab edən Vidadi İskəndərli və bu kimi xalqın düşmənləri usanmaq bilmədən təcavüzkar ölkənin özləri kimi başıboş, savadsız Ermənistanın baş naziri Nikol Paşinyanın müdafiə edən çıxışlar etməsinə nə ad vermək olar? Vicdansızlıq və nankorluq! Bir də, taylıtayını tapar. Bu satqınların mənəvi deqrodasiyaya uğradıqlarıyla yanaşı, etnososioloji varlıq olaraq ermənilәşdiklərini, tarixi düşmənlərimizlə eyni mental xüsusiyyətləri paylaşdıqlarını ortaya qoyurlar.

### Hər kəs etdiyi əməllərin cəzasını çəkəcək....

Özü də xalqın qarşısında. 28 il «müxalifətdəyəm» deyənlərin əqidəsi, məsləki, satqınlığı, əxlaqsızlığını zaman özü elə üzə çıxarır ki Və bu gün yenidən təcavüzkar Ermənistanın törətdiyi təxribatlarına həmişə dəstək verən radikal müxalifət, xüsusilə də AXCP sədri Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Arif Məmmədov kimilər necə ki, iş çətinə düşən kimi, «dövlətin yanındayıq», vəziyyət stabilləşən kimi olurlar iblis. Çünki istər dələduzlar yuvası olan «Milli Şura», istər «beşinci kalon»un cinayətkar virusları anlamalıdırlar ki, indi 90-cı illərin əvvəlləri deyil. Arzuolunmaz ssenari düzənləmək istəyənlər isə unudublar ki, nə dövlət həmin dövlətdir, nə cəmiyyət! İndi dövlət cox güclüdür, cəmiyyət isə ağı-qaradan seçə bilir. Əldə olunan nailiyyətlər sırasında təhlükəsizlik, güclü ordu, əmin-amanlıq, sabitlik, inkişaf və sosial rifah öndə gəlir. Son illər cəbhədə düşmənə verilən cavab, bir qarış olsun belə torpaq verməmək, əksinə yeni mövqelər əldə etmək məhz bu gücün real göstəricisidir. Və bu satqın, erməniyə nökərçilik edənlər anlamalıdır ki, Azərbaycanın güclü ordusu var və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Heç kim şübhə etmir ki, əlverişli məqamda bu, mütləq baş verəcək. Bunu 2016-cı ilin aprel döyüşləri, hazırda Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələr və bu ilin sentyabr ayının 19-da işğalçı Ermənistann etdiyi təxribatlarına görə əməli-başlı dərsini verdi. Və «Dəmir yumruğ»un davamı olaraq «Qisas» və «Qətiyyətli cavab» əməliyyatları Ermənistana layiq olduğu yeri göstərdi. 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük İkinci Qarabağ müharibəsində dünya hərb tarixinə yeni səhifə yazan yenilməz Azəbaycan Ordusu – 2023-cü il sentyabrın 20-də növbəti qələbəyə imza atdı. Belə ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının «Dəmir Yumruq» siyasəti ilə Güclü Ordumuzun əsgər və zabitləri Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi daha bir böyük missiyanı uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Qısa müddətdə - bir günə təmin etdiyi qələbə yenilməz Ordumuzun malik olduğu imkanların olduğunu və Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı bütün təxribatların qarşısı qətiyyətlə alınır və alınacağının sübutu idi.

Qalib Liderimiz, Prezident İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində lokal antiterror tədbirlərinə başlanmasını şərtləndirən amillərə diqqəti yönəldərək bildirdi ki, bu tədbirlər nəticəsində hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edən dövlətimizin başçısı deyib: «Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır».

Bəli, sözü imzası qədər dəyərli və keçərli olan Ali Baş Komandan, Prezident İlham Əliyev nə vaxt, nəyi, necə etmək lazımdır – bunu özü bilir. Və dövlət başçımızın söylədiyi kimi: «Bizə xor baxanlara, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, “Dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”.

***Rəfiqə HÜSEYNOVA***

# “17 noyabr hərəkatı müstəqilliyin təməllərini qoydu”




## MÜNASİBƏT BİLDİRİLDİ

***“Milli Dirçəliş gününün Azərbaycan tarixində xüsusi yeri var”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elman Cəfərli deyib. Elman Cəfərli sözlərinə belə davam edib: “Tarixdən bəllidir ki, 1920-ci ilin 27 aprelində Şərqdə ilk müstəqil demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti devrildi. Onun yerinə qurulmuş Azərbaycan Şura hökuməti 2 il sonra SSRİ-yə daxil edildi. Cildini dəyişmiş qırmızı Sovet imperiyasının rəhbərliyi 70 il başımızı xalqlar dostluğu, ictimai bərabərlik şüarları ilə qataraq əl atından erməni fitnəkarlığını körükləyirdi. Dəfələrlə qondarma yaradılmış “Dağlıq Qarabağ Muxtar Vilayətində” etnik zəmində qarşıdurmalar, separatizm meylləri baş qaldırmışdı.***

Ümummilli lider Heydər Əliyev 1987-ci ildə Sovet rəhbərliyindən zorla istefaya göndəriləndən sonra ermənilərin əli-qolu açılmışdı. 1988-ci ilin fevralında Qarabağın dağlıq hissəsində yaşayan erməni əhalisinin separatçılıq meylləri artıq hərəkata çevrilmişdi. Ermənilərin qanunsuz əməllərinə Moskvadakı imperiya rəhbərliyi laqeyd idi. Bəzən Kreml qızışdırıcı addımlar da atırdı. Ən pisi o idi ki, o vaxtkı Azərbaycan rəhbərliyi dövrün nəbzini tuta bilmir, özünü xalqdan kənar tuturdu. Rəsmi televiziya və mətbuat həqiqəti xalqdan gizlədirdi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qorxaq rəhbərliyi işi o yerə çatdırmışdı ki, xalq kütləri hərəkətə gəlməyə başlamışdı. Milli düşüncəli ziyalıların rəhbərliyi ilə ilk təşkilatlar yaranmağa başlamışdı. Bu zaman “Varlıq”, “Çənlibel” və digər milli təşkilatların gənc fəalları xalq içərisinə gedir, sadə insanlara əslində baş verənləri anladırdı. Xalqın ilk təşkilatlanması da beləcə başlanırdı. Ermənilərin Şuşa yaxınlığında Topxana meşəsində nadir ağacları kəsməsi xalqın səbr kasasını daşdırdı. 1989-ci ilin noyabrın 17-də xalq o zaman Leninin adını daşıyan meydana toplaşdı. 18 gün meydandan çıxmayan xalqın izdihamlı aksiyası imperiyanı lərzəyə gətrimişdi. Xalqın hakimiyyətdən tələbi bunlar idi:

-Hökumət iqtisadi əlaqələrin kəsiləcəyi ilə bağlı Ermənistana qəti xəbərdarlıq etməlidir.

-Televiziya birbaşa canlı yayımla verəcək ki, Topxanada nə işlər görülür.

-Ağdam şəhərində qadağa saatı 24 saata ləğv edilməlidir.

-Dağlıq Qarabağ Muxtar Vilayətində partiya və sovet orqanları buraxılmalıdır.

-Orada Azərbaycanın hüquqi, siyasi və iqtisadi normaları bərpa edilməlidir.

Dekabrın 4-də Sovet hüquq mühafizə orqanlarının və hərbçilərinin zorakılığı ilə meydan dağıdıldı. Lakin bu, xalqın azadlıq istəyini qıra bilmədi. Meydana oraq-çəkicli bayraqla daxil olmuş xalq oradan üçrəngli istiqlal bayrağı ilə çıxdı. 17 noyabr hərəkatı müstəqilliyin təməllərini atdı. 18 günlük aksiyada azadlığa təşnə yeni bir Azərbaycan xalqı doğuldu. Azərbaycan xalqı həmin il Avropanın nüfuzlu dərgilərindən birində “İlin xalqı” elan edildi. Dünyanı heyrətə gətirmiş bu izdihamlı aksiya bir həqiqəti üzə çıxardı: Azərbaycan xalqının başın açılan müsibətləri yalnız müstəqil dövlət dayandıra bilər. Belə də oldu. Meydan hərəkatından cəmi 2 il sonra Azərbaycan öz müstəqilliyini elan etdi”.

***Ayşən Vəli***

# 2024-2025-ci tədris ilində xaricdə təhsil üzrə proqramların siyahısı açıqlanıb

Növbəti tədris ilində ”2022-2026-cı illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı” çərçivəsində dünyanın nüfuzlu universitetlərinin bakalavriat və magistratura səviyyələri üzrə maliyyələşdiriləcək təhsil proqramlarının siyahısı müəyyən edilib. Bu barədə SİA-ya Elm və Təhsil Nazirliyindən bildirilib. Qeyd olunub ki, 2024-2025-ci tədris ilində siyahıda 15 prioritet ixtisas sahəsi üzrə dünyanın 28 ölkəsinin 179 nüfuzlu ali təhsil müəssisəsində tədris olunan 631 bakalavriat və 3362 magistratura olmaqla ümumilikdə 3993 təhsil proqramı yer alır.

Namizədlər eyni zamanda müvafiq reytinq cədvəllərində ilk onluqda yer almış ali təhsil müəssisələri tərəfindən təqdim olunan digər ixtisas sahələri üzrə bakalavriat və ya magistratura proqramlarından əldə etdikləri qəbul məktubları əsasında müsabiqədə iştirak edə biləcəklər. Bu il ilk dəfə mədəniyyət və incəsənət sahəsi üzrə nüfuzlu ali təhsil müəssisələri tərəfindən təqdim olunan bakalavriat və magistratura proqramları üzrə namizədlərin müraciətləri qəbul ediləcək.



Məlumat üçün qeyd edək ki, 2023-2024-cü tədris ilində “2022-2026 Dövlət Proqramı” çərçivəsində ümumilikdə dünyanın 17 ölkəsinin nüfuzlu ali təhsil müəssisələri üzrə 381 nəfər Azərbaycan Respublikası vətəndaşı təhsil almaq hüququ qazanıb. Proqram iştirakçılarından 49 nəfəri cari il üzrə dünyanın 10 ən yaxşı universitetinə qəbul olunub. Müvafiq siyahı ilə keçiddən tanış olmaq mümkündür. Əlavə suallarla bağlı dp22-26@edu.gov.az ünvanına müraciət etmək mümkündür.



# Gənclər nə istəyirlər?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*





***Bir dövlətin, bir millətin özül sütunudur gənclər. Böyük arzuları, böyük idealları, böyük ümidləri var. Gəncliklərini yaşamadan yaşlanan, oxumaq, işləmək, qazanmaq üçbucağında qaçhaqaç həyat yaşayan gənclər...***



Gənclərin ən vacib üç əsas ehtiyacı var. Enerjisini çıxarmalı, özünü ifadə etməli, həmyaşıdları ilə ünsiyyət ehtiyacını ödəməlidir. İnsan həyatı boyu ən yüksək enerjiyə gənclik illərində sahib olur. Həyat boyu insanlar ən çox gənclik illərində dinamik olur, daha çox aktiv olurlar, daha çox özlərini göstərmək istəyirlər. Yemək yeyirsə, geyimlə təmin olunursa, dostları ilə sosiallaşırsa bir gəncin bütün ehtiyacları ödənmiş olmur. Elə ehtiyaclar var ki, fiziki, elə ehtiyaclar da var ki mənəvi boşluğu doldurmaq üçündür. Bizim gənclər yaxşı-pis fiziki ehtiyaclarını ödəyirlər, bəs mənəvi ehtiyaclar?

Sosiallaşmaq ehtiyacı yarandıqda və gücləndikdə insan bu ehtiyacını ödəmək üçün vasitə, yol, çıxış axtarır. Sağlam mühit tapa bilmədikdə isə gənclər qeyri-sağlam mühitə üz tutur, axtardığını burda tapdısa vay halına! Çünki o mühit sağlam deyil, zərərli vərdişlərlə zəngindir, amma gənci həmin an o mühitin sağlam olub-olmaması narahat etmir, onu maraqlandıran ehtiyaclarının ödənilməsidir. Bu yolda zərərli vərdişlərə yiyələnir, zərərli yoldaşlıqlar qurur, amma fərqində olmur. O anlaşılmaq, başa düşülmək istəyir, amma bunun üçün yalnış yer seçir.

Bu dövrdə gənclər görünmək, danışmaq, izah etmək istəyirlər. Dünyanı, həyatı, hadisələri və insanları anlamağa başladıqca, özləri haqqında nəticə çıxarmaq, öz yollarını tapmaq, bütün bunları insanlarla bölüşmək, insanlara öz fikirlərini və özlərini göstərmək istəyirlər. Çünki məktəbdən, universitetdən, dərsdən kənarda öz fikirlərini, hisslərini, istedad və qabiliyyətlərini ifadə etmək imkanı tapa bilmirlər. Xüsusilə onlar üçün məşğuliyyət, əyləncə yerlərinin az olması da buna təsir göstərir. Daha doğrusu, gənclərin ödənişsiz əyləncə, məşğuliyyət yolları yoxdur. Hər rayonda tikilən, amma ağzı qıfıllı saxlanan Gənclər Evi onların üzünə bağlıdır. Gənclərə özünü ifadə edə biləcəkləri alternativ məkanlar və imkanlar təmin edilmədikcə, onların zərərli vərdişlərdən və yollardan uzaqlaşmasını gözləmək də sadəlövhlük olardı.

Əslində, kəşf olunmağı gözləyən ən böyük dəyərlərimizdən biri də gənclərdir. Gənclik öz yolunu və həyat tərzini təyin etməyin başlanğıc dövrüdür. Bəşəriyyət cəmiyyət kimi formalaşmağa başladığı vaxtdan gəncliyə xüsusi önəm verib. Bütün dinlərdə gənclərlə bağlı hikmətli sözlər deyilir, bütün müdriklər gənclərin gələcəyə körpü olması barədə danışıb, mənəvi dəyərlərə önəm verilərək tərbiyə olunmalarını əsas tutub, bütün xalqlar vətənpərvərliyi onların timsalında təbliğ ediblər.

Millətçilik ideallarında millətin gələcəyi onlara tapşırılır, sosializm öz gələcəyini bu ideyalara sadiq gənclərdə görür, dövlət öz siyasi kursunun təbliğini potensial vəd edən gənclərə həvalə edir, milli-mənəvi ənənələrin təbliği onlar vasitəsi ilə həyata keçirilir. Çünki gənclər cəlddir, temperamentlidir, parlaq gələcək vəd edirlər. Asanlıqla öyrənirlər, öyrəndiklərini asan tətbiq edirlər. Gənclər həmişə yenilikçidirlər, lakin bunun fonunda əgər milli adət və ənənəyə, vətənpərvərlik ideyalarına sadiq qalınaraq tərbiyə olunublarsa həm millətçiliyə, həm dövlətçiliyə, həm mənəviyyata, həm də vətənpərvərlik ideyalarına sadiqdirlər.

Sağlam sosiallaşma onların haqqıdır, ehtiyacıdır. Bu təmin edilməlidir. Sosiallaşmanın sağlam olması üçün həm dövlət, həm cəmiyyət kontakt halında olmalıdır. əlaqə dərin və davamlı olmalıdır. Lakin şəhərləşmənin gətirdiyi həyat tərzində daha nə əvvəlki qonşuluq, nə də məhəllə münasibətləri var, indi sosiallaşma imkanları tamamilə virtual aləmin öhdəsindədir. Bu səbəbdən də gənclərin sağlam sosiallaşa, həmyaşıdları ilə görüşə, söhbət edə, ortaq fəaliyyət göstərə biləcəyi zəmin və imkanlar hazırlamadan onların virtual münasibətlərini tənqid etmək də doğru deyil.

Bu gün hər kəsin qəbul etdiyi qaçılmaz bir həqiqət var ki, o da uşaqlarımızın yaşayacağı zaman bizim yaşadığımız zamandan çox fərqli olacaq. Bu baxımdan övladlarımızın malik olacaqları bilik, bacarıq və davranışlar əlbəttə ki, valideynlərinkindən fərqli olacaq. Onlar yaradıcı, yenilikçi, ixtiraçı bir dövrdə yaşayacaqlar, innovasiyanın bütün mərhələlərini keçəcəklər. Valideyn olaraq bizim borcumuzdur ki, innovativ gələcəyə övladımız öz mədəniyyətinə, adətinə vətəninə bağlı fərd kimi getsin.

Gənclər enerjilərini sağlam şəkildə boşalda bilmədikcə, özlərini sağlam şəkildə ifadə edə bilmədikcə, həmyaşıdları ilə sağlam mühitlərdə ünsiyyət qura bilmədikcə, onlardan şikayət edənlər də artacaq. Ancaq şikayət edərkən onların fonunda özümüzə də baxaq. Təmin edilməyən gənclərdən nə qədər çox şey gözlədiyimizin fərqindəyikmi? Günahkar axtarılırsa, o gənclər deyil, onların ehtiyaclarını görməyən, ödəməyən hər kəsdir. Onları təmin etməliyik. Gənclər gələcəyə tam təşəkkül hazırlanmalıdırlar. Gələcək amansız olacaq...

**Lalə Mehralı**



SƏS
14 noyabr
2023-cü il

# “Nə istədiyini bilməyən insanlar həyatda daha çox səhv edir”



*“İlk olaraq qeyd etməliyəm ki, ətrafımızda, cəmiyyətdə nə istədiyini bilməyən, heç bir məqsədi olmayan insanlar var. Bu mövzu haqqında “Nə istədiyini bilməyən insanların problemləri nədir? Ümumiyyətlə bunun psixoloji durumla əlaqəsi varmı?” kimi suallar alıram.*

## PSİXOLOQ FİKRİ

Bildirmək lazımdır ki, nə istədiyini bilməyən, həyatda hansı yolla irəliləyəcəyini özü üçün bəlli etməyən insanlar bəzən bunu özləri də etiraf edirlər. Məsələn bunu abituryentlərin və ya yuxarı sinif şagirdlərində müşahidə edirik. Onlarda hansı sahəni seçəcəyi, gələcəkdə özünü harda görəcəyi barədə sual ünvanladıqda bir çoxu cavablandıra bilmir. Həmçinin hər hansısa mağazaya gedib sevdiyi bir şeyi alır lakin evə gəldikdə fikri dəyişir, “onu niyə aldım ki? Gərək heç almaz idim”, kimi fikirlər səsləndirən insanlar da var”. Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, Uzman- Klinik psixoloq Narınc Rüstəmova deyib.

Psixoloq bildirib ki, tərəddüdlü, çox fikir dəyişkənliyi olan insanlarda özgüvən aşağı olur: “Özgüvən əskikliyi, tez-tez qərarsızlıq yaşayan insanlar eyni zamanda depsessiya ya da meyilli olurlar. Ona görə də belə insanlarla zamanında psixoloqa müraciət etməli və eqoterapiya (özgüvən terapiyası) keçmələri lazımdır.

Belə insanlar bir məsələdə deyil, həyatlarında baş verən bir çox şeylərdə qərarsız, tez-tez fikir dəyişən olurlar. Ona görə də kiçik yaşlardan valideynlər uşaqlara qərar qəbul etmək vərdişini aşılamalıdır. Xüsusən avtoritar və mükəmməliyyətçi ailədə böyüyən uşaqlarda bu hallara çox təsadüf edilir. Çünki qərarları onların yerinə valideynləri düşünür və öz istəklərinə görə onları yönləndirir. Başqa sözlə ifadə etsək övladlarına seçim haqqı vermirlər. Artıq övladı böyüyüb müəyyən yaşa çatdıqda isə valideyn onun məsuliyyətsiz olmasından, düzgün qərar qəbul edə bilməməsindən şübhələnir. Ancaq, valideynlər bilməlidirlər ki, bunun təməlini onlar qoyub. Qeyd etdiyim kimi burada əsas məsələlərdən biri valideynin övladına seçim haqqı verməsidir. Ən sadə misalla bunu izah etsək, məsələn marketdən meyvə şirəsi aldıqda bunu valideyn özü yox, övladının seçməsi, qərar verməsi üçün şərait yaratmalıdır. Bunlar çox kiçik görünsə də uşaqlarda irəli yaşlarda düzgün qərar vermək bacarığını formalaşdırır və beləliklə, nə istədiyini bilən güclü şəxsiyyət formalaşır”.

***S.Hüseynli***

# İstirahət günlərindən sonra işə necə adaptasiya olmaq lazımdır?

“İş prosesinə adaptasiya olmağa bir neçə gün öncədən başlamaq lazımdır. İnsanlar 5-6 gün evdə qaldıqdan sonra adaptasiya prosesində çətinlik çəkir, iş prosesinə dincəlmiş deyil, yorulmuş olaraq başlayırlar”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib.

Psixoloq bildirib ki, yeni iş gününə enerjili başlaya bilmək üçün zamanında yatmaq, musiqi dinləmək, gözəl əhval-ruhiyyədə olmaq lazımdır: “Eyni zamanda işə başladıqda planlı şəkildə irəliləsələr, çətinlik çəkməyəcəklər. İnsanlar həftənin 5 və ya 6 gününü işləyirlər. Buna görə də hər gün eyni saatda işə gəlib-getmək, səhər yuxudan durmaq bəzi insanlara mənfi təsir edir. Hətta bəziləri ümumiyyətlə saatla çalışmağı sevmir, günün müəyyən saatlarını işə ayırmağa üstünlük verirlər. Bu isə təbii ki, dövlət işlərində mümkün olmur. Bu cür insanların istirahətdən sonra işə qayıtması çox çətin olur. Bu ciddi psixoloji problem deyil. Sadəcə olaraq insanların yaşadıqları müəyyən çətinliklərdir”.



***Səbinə***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Siqaretin saxlanma müddəti bir ildən artıq deyil”

**“”Tütün və tütün məmulatı” haqqında qanun illər öncə qəbul olunub və həmin qanunda dəfələrlə dəyişiklik aparılıb, qanun daha da sərtləşdirilib. Məsələn, siqaretlərin tək-tək və təhsil müəssisələri yaxınlığında satışı qadağan edilib. Eləcə də bununla bağlı dövlət tərəfindən proqram qəbul olunub. Bu proqramda tütündən istifadənin 10 faizə qədər azaldılması nəzərdə tutulurdu. Lakin bunun əksinə olaraq siqaret satışı inkişaf edib, hətta bazara qəlyan da daxil olub”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.**



QURUM RƏSMİSİ AÇIQLADI

Sədr bildirib ki, təxminən 8 il öncə Şəkidə təhlükəli siqaret istehsal edən fabrik işə başlayıb: “Siqaretlərin bütün növləri təhlükəlidir. Müxtəlif növlərinin satışa çıxarılması sadəcə olaraq istehlakçıları aldatmaq məqsədi daşıyır. Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, marketə girdikdə insanı siqaret “qarşılayır”.

Azad İstehlakçılar Birliyi illərdir mübarizə aparır ki, bu məsələ həllini tapsın. Buna səbəb odur ki, ”Reklam haqqında” qanun qəbul olunduqda məhsulun özü reklam kimi qəbul olunmayıb. Əslində isə ən yaxşı reklam elə məhsulun özüdür. Bu mənada parlamentin bu cür işlərinə etirazımı bildirirəm. Hətta çıxışımda siqaretlərin üzərində buraxılma və son istifadə müddətinin yazılmasının vacibliyini də bildirmişəm. Çünki siqaretlərin saxlanma müddəti bir ildən artıq deyil. Bundan isə yalnız birinə, buraxılma tarixinin yazılmasına nail ola bildik. Siqaretlər saxlandıqda daha təhlükəli hal alırlar”.

***Səbinə Hüseynli***

# 8 avtomobildən oğurluq edən keçmiş məhkum saxlanılıb

Bakıda avtomobillərdən oğurluq edən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumat görə, Binəqədi RPİ 6-cı Polis Bölməsi əməkdaşlarının daxil olan məlumatlar əsasında keçirdikləri tədbir nəticəsində müxtəlif vaxtlarda Biləcəri qəsəbəsi ərazisində 8 avtomobildən mobil telefon oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Eldəniz Mehrəliyev saxlanılıb. Ondan heroin aşkar olunaraq götürülüb. Araşdırma aparılır.




Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000